11_27 IYUl-QARA.qxd 3/20/2026 12:09 AM Page 1


# UNİKAL

№11 (2290) 20 mart 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Dövlət qulluqçularının yeni əməkhaqqı sistemi formalaşdı



Səh.3

## Zaur Əliyev vəzifəsini itirdi

*Xəbər verdiyimiz kimi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.*
*"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.*
*Bununla da Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev vəzifə səlahiyyətlərini itirib. Onun səlahiyyətləri əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevə həvalə olunub.*

Səh.3

## "Azərbaycan dünya bazarında daha dayanıqlı qiymət tarazlığında maraqlıdır"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, neft qiymətlərinin bahalaşmasının büdcədən hansı sahələrə ayırmalara imkan yaratmasından, 50 bal toplayan müəllimlərin də maaşının artırılmasından, vəfat edən şəxsin pensiya...*

Səh.4

## Monopolistlərin burnumuzdan gətirdiyi bayram...



*Azərbaycanda builki Novruz bayramı ərəfəsində ənənəvi şirniyyatların qiymətlərində göz-görəti artım var. Novruzun simvollarından sayılan şəkərbura və paxlava indi əvvəlki illərdən xeyli baha başa gəlir. "Unikal"ın araşdırması zamanı məlum olub ki, hazırda satışda şəkərburanın qiyməti 1.80-2 manat...*

Səh.10

## Anar Əliyevin müavinlərinin sayı artırıldı



*Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinlərinin sayı artırılıb. "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Fərmana əsasən, nazirin Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 (bundan əvvəl 4 idi - red.) müavini var.*

Səh.2

11+_27 IYUI-QARA.qxd 3/19/2026 10:04 PM Page 2



# "Həyat yoldaşımdan çox qazanıram, amma" - Elnarə Abdullayeva



***Əməkdar artist Elnarə Abdullayeva şəxsi həyatı ilə bağlı açıqlaması ilə gündəmə gəlib.***

"Unikal" xəbər verir ki, sənətçi həyat yoldaşı ilə münasibətlərindən danışaraq maraqlı fikirlər səsləndirib. O, bildirib ki, qazanc baxımından ailədə daha çox gəlir əldə etsə də, həyat yoldaşının qazandığı pulun bərəkətinə daha çox inanır: "Həyat yoldaşımdan çox qazanıram. Amma onun 10 manatı mənim 100 manatımdan daha bərəkətlidir".

İfaçı qeyd edib ki, həyat yoldaşı ailə biznesi ilə məşğuldur və geyim mağazaları fəaliyyət göstərir. Onun sözlərinə görə, hər kəsin qazancı fərqlidir və bunu müqayisə etmək doğru deyil: "Yazıq kişilərin hamısı müğənni kimi pul qazana bilmir ki. Nə qazanırsa, mənim üçün kifayətdir. Ayda ondan 10 min pul istəyə bilmərəm".

Sənətçinin bu fikirləri sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bəzi istifadəçilər onun yanaşmasını dəstəkləsə də, digərləri mövzuya fərqli yanaşıb./Milli.Az

# "3 evimi və bir maşınımı öncəki ailəmə bağışlamışam" - Hüseyn Məhəmmədoğlu

***Tanınmış klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu səmimi etirafı ilə gündəmə gəlib.***

Milli.Az xəbər verir ki, sənətçi ilk evliliyindən və övladlarına münasibətindən danışaraq diqqətçəkən açıqlamalar verib. O, bildirib ki, birinci ailəsindən olan uşaqlarına hər zaman dəstək olub və onlara böyük maddi imkanlar yaradıb.

Məhəmmədoğlu sosial şəbəkələrdə səsləndirilən tənqidlərə də münasibət bildirərək qeyd edib: "Mən Aysel xanımla efirə çıxanda onun hansısa xüsusiyyətini tərifləyəndə dərhal yazırlar ki, ikinci ailə şirin olur. Birinciyə yaşadardın? Siz nə bilirsiniz nələr etmişəm ki...".



İfaçı sözlərinə əlavə edib ki, övladları üçün əlindən gələni edib: "Halal xoşları olsun, övladlarımdır. Nələr etdiyimə Allah şahiddir. 3 evim var idi, hamısını onlara vermişəm. Bir maşın da bağışlamışam. Evdən sadəcə alətimi və pencəyimi götürüb çıxmışam ki, hər şey övladlarıma qalsın".

Onun bu səmimi etirafı sosial mediada geniş müakirə doğurub. İzləyicilər arasında fikirlər birmənalı olmayıb. Bəziləri sənətçinin bu addımını yüksək qiymətləndirsə də, digərləri mövzuya fərqli yanaşıb.



## Restoranda aktrisa ilə dostlarının başına iş gəldi - "Gözünün biri görməyə bilər"

***Aktrisa Üzel Kərimovanın getdiyi restoranda başına iş gəlib.***

"Unikal" xəbər verir ki, bu haqda aktrisa özü sosial şəbəkədə paylaşım edib. Bildirib ki, rəfiqəsi və onun ailəsi ilə restoranda olarkən bir qrup şəxs rəfiqəsinin ərinə hücum edib, onu döyüblər:

"Yaşadıqlarımızdan sonra oturduğum yerdən tərpənə bilmirdim. Danışmaqdan çox əlimdə paylaşacaq materiallar var. Getdiyimiz məkanla bağlı məlumat paylaşdım, məni hadisəni törədənlər hədələdi. Qəza baş verdi, onun böyüdüb hadisəyə çevirdilər. Bizim bildiyimiz dörd nəfər bir nəfəri təkləyib, ölümünə döyüb. Ekspertizanın rəyinə görə gözünün biri görməyə, digəri zəif görə bilər. Polis əməkdaşları vəzifələrini yerinə yetirilər".

## Fədayə Laçın 35 il sonra Laçındakı evlərini tapıb göz yaşı tökdü



***Müğənni Fədayə Laçın 35 il sonra Laçına gedib.***

Axşam.az xəbər verir ki, sənətçi həmin görüntüləri "Öz aramızda" proqramında nümayiş etdirib. F.Laçın gedib böyüdüyü evi tapdığını deyib. O, həmin kadrları göz yaşı ilə lentə alıb: "Elə qarışıq hisslər yaşadım ki... Bilmirəm onu necə ifadə edim. Gedib görürsən ki, doğulub böyüdüyün evi dağıdıb, yandırıblar. Həm ağladım, həm sevindim. Sevincim, kədərim, Laçınım mənim. Orada oteldə qaldıq. Yatmışam, inanmıram ki, Laçında oteldəyəm. Deyirəm, yuxudursa, oyanmayım. Sonsuz şükür edirəm. Heç ağlıma da gəlməzdi ki, torpaqlar geri qayıdacaq. Nənəmin məzarı orada qalmışdı. Sonradan düzəltdiriblər. Gedib ziyarət etdim".

## "Mənim üçün yeni dövr başlayır" - Adını dəyişdi



***Müğəni Lətifə sosial şəbəkədə olan rəsmi səhifəsində adını dəyişdib.***

Axşam.az xəbər verir ki, sənətçi uzun müddətdir bununla bağlı işlər aparıldığını bildirib. O qeyd edib ki, 4 aya yaxındır peşəkarlar bunu etməyə çalışır və ötən gün bu istəyinə çatıb. O, instagram və digər sosial şəbəkə hesablarında adını "latiffa.music" olaraq dəyişdirib.

"Bundan sonra bütün rəqəmsal platformalarda və səhnədə yalnız Lattifa adı ilə çıxış edəcəyəm. Bu, mənim üçün yaradıcılığımda yeni istiqamətin rəmzi kimidir. Bu addım həm mən, həm də komandan tərəfindən qərarlaşdırılıb. Lattifa adı artıq özlüyündə bir imzadır və əlavə heç bir təqdimata ehtiyac yoxdur.

Bu dəyişikliklə birlikdə yaradıcılığımda da yeni dövr başlayır: mahnılar, kliplər" deyə, ifaçı açıqlamasında bildirib.

11+_27 IYUI-QARA.qxd 3/19/2026 10:04 PM Page 3



# Dövlət qulluqçularının maaşlarının baza hissəsi artırıldı



*Bu günlərdə “Dövlət qulluğu haqqında” qanunda və müvafiq qanunvericilik aktlarında edilən dəyişikliklər Azərbaycanda dövlət qulluğu sahəsində əməkhaqqı sistemində köklü dəyişikliklərə qərar verildiyini göstərir.*

Məlum olduğu kimi, dövlət qulluğunda mükafat sistemi, dövlət qulluqçusuna staja, hakimiyyət səlahiyyətinə görə, habelə vəzifə maaşının müəyyən edilmiş misli qədər verilən, dövlət büdcəsi hesabına ödənilən əlavələr, həmçinin dövlət qulluqçuları üçün müalicə müavinəti ləğv edilir.

”Unikal” Apa-ya istinadən xəbər verir ki, dövlət qulluqçularının təminatlarından ləğv edilmiş bu əlavələr onların vəzifə maaşlarının baza hissəsinə daxil edilib.

Sadə dildə desək, köhnə mexanizmlər - həm kollektiv, həm də fərdi mükafatlar ləğv edilərək vəzifə maaşına daxil edilməklə beynəlxalq təcrübədə tətbiq edilən yeni vahid və nəticəyönümlü əməkhaqqı strukturu müəyyən olunur.

Mütəxəssislərin fikrincə, əvvəlki sistemdə dövlət qulluqçusunun əməkhaqqı mürəkkəb və qeyri-şəffaf idi - vəzifə maaşı ümumi gəlirin yalnız 35-45%-ni təşkil edir, qalan hissə isə staja görə əlavə, hakimiyyət səlahiyyətinə görə əlavə, kollektiv/fərdi mükafatlar və digər ”misli ilə” ödənişlərdən ibarət olurdu. Bu mexanizmlər motivasiyadan daha çox idarəetmədə qeyri-müəyyənlik yaradırdı. Yeni modeldə isə hər şey sadələşib: aylıq əməkhaqqı indi əsasən vəzifə maaşı (baza), ixtisas dərəcəsinə görə əlavə, əmək şəraiti əlavələri və artıq iş saatları üçün haqdan ibarətdir. Ən əsası isə, yeni modeldə əməkhaqqının vəzifə maaşında ümumi payı artıq cəmi 35-45% deyil, orta hesabla 95%-dən yuxarı təşkil edəcək. Bu isə əməkhaqqının baza hissəsinin kəskin güclənməsi deməkdir.

Müvafiq qanunvericiliyə dəyişikliklərdən sonra mükafatlandırma mexanizmi də yenilənir. Hər il dövlət büdcəsində dövlət qulluqçularının aylıq vəzifə maaşının 3 misli həcmində xüsusi vəsait nəzərdə tutulurdu. Bu vəsait bayram günləri ilə əlaqədar kollektiv mükafatlandırma və xidmətdə fərqlənən şəxslərin fərdi qaydada təltif edilməsi üçün istifadə olunurdu. İndi isə bu mexanizmdən imtina edilir və mükafatlar ləğv edilir.

Digər mühüm addım müalicə müavinətinin ləğvidir. Bəzi dövlət orqanlarında əməkdaşlara hər il məzuniyyətə çıxdıqda və ya məzuniyyət hüququndan istifadə etmədikdə bir aylıq vəzifə maaşı həcmində verilən bu müavinət də artıq olmayacaq.

İnzibati təsnifat və ixtisas dərəcələrinə görə ödəniş səviyyələri də optimallaşdırılıb: inzibati vəzifələr üzrə 35, yardımçı vəzifələr üzrə isə 17 səviyyə müəyyən edilib. Staja görə isə 7 ödəniş pilləsi saxlanılıb.

Mütəxəssislər hesab edir ki, bu islahat dövlət qulluğunda motivasiyanı artıracaq və korrupsiya risklərini azaldacaq. Dövlət idarəetmə sistemində korrupsiyaya qarşı mübarizə isə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Beynəlxalq təcrübə də bunu təsdiqləyir. Məsələn, Sinqapurda əməkhaqqının şəffaf və rəqabətli strukturda qurulması korrupsiyanı minimuma endirib. Yaxud Honq-Konqda dövlət xidmətində əməkhaqqı siyasətinin dəyişdirilməsi ilə bağlı aparılmış araşdırmalar göstərib ki, dövlət qulluqçularının əməkhaqlarının cəmi 10% artırılması rəsmi korrupsiya şikayətlərinin təxminən 4% azalmasına, korrupsiya ilə bağlı cinayət işləri üzrə məhkumluq hallarının isə 7-21% azalmasına səbəb olub. Estoniya və Gürcüstan kimi ölkələrdə də oxşar sadələşdirmələr dövlət idarəçiliyinin keyfiyyətini yüksəldib. Avropa Komissiyasının məlumatına əsasən, bir sıra Avropa ölkələrində dövlət sektorunda əməkhaqqı sistemləri çoxsaylı və mürəkkəb əməkhaqqı strukturlarını sadələşdirmək, vəzifələrin təsnifatına əsaslanan vahid əməkhaqqı modeli yaratmaq və dövlət idarəçiliyinin səmərəliliyini artırmaq məqsədilə modernləşdirilib.

Nəhayət, dövlət qulluqçularının əməyinin ödənişini daha ədalətli və idarəolunan etmək məqsədi daşıyan son dəyişikliklər paketi əməkhaqqı strukturunu sadələşdirmək və şəffaflığı artırmaqla yanaşı, həm də gənc kadrların dövlət xidmətinə cəlbinə yeni stimul yaradacaq. Belə ki, əvvəlki sistemdə dövlət qulluğuna yeni qəbul olunan şəxslərin maaşı əlavələrə görə aşağı olurdu. Təbii ki, bu, gənc kadrların dövlət qulluğuna deyil, özəl sektora axınına səbəb olurdu. İndi isə yüksək baza maaşı dövlət qulluğunu daha cəlbedici edəcək, dövlət qulluğu isə daha rəqabətli olacaq.

Bir sözlə, bu islahat dövlət qulluğunu sadəcə ”iş yeri” deyil, peşəkar karyera platformasına çevirir. Şəffaflıq, ədalət və nəticəyönümlülük, korrupsiyaya qarşı maneə, insan resurslarının effektiv idarə edilməsi və ölkədə ümumilikdə idarəçilik keyfiyyətinin yüksəldilməsi baxımından yeni sistemin effektli olacağı şübhə doğurmur.

# Hotellərin Novruz soyğunçuluğu

## Ötən illə müqayisədə qandonduran bahalaşma - Yenə bayram, qiymətlər yenə kəllə-çarxda!

***Azərbaycanda hotellərin bayram tətilləri zamanı qiymətləri kəllə-çarxa qaldırması artıq adət halını alıb. Lakin builki Novruz bayramı günləri ilə bağlı müşahidə olunan qiymət artımı bəzi hallarda əndazəni ümumiyyətlə aşıb. Belə ki, xüsusilə bölgələrdə yerləşən məşhur istirahət mərkəzlərində bayram paketlərinin qiyməti hətta 2000 manata qədər yüksəlib.***

Əlbəttə, Novruz bayramı ilə əlaqədar uzunmüddətli istirahət günlərinin olması daxili turizmə tələbatı artırıb. Bu səbəbdən Qəbələ, Quba, Şahdağ və Naftalan istiqamətində yerləşən hotellərdə yerlərin böyük hissəsi əvvəlcədən bron edilib. Lakin hər bir halda açıqlanan qiymətlərin orta statistik vətəndaşın maddi imkanlarından ağlasığmaz dərəcədə, dəfələrlə yüksək olması normal məntiqlə izah edilə bilməz.




Məlumata görə, Qafqaz Riverside Hotel, Qafqaz Tufandag Mountain Resort Hotel və Chenot Palace Health Wellness Hotel kimi hotellərdə 3 gecəlik bayram paketlərinin qiyməti təxminən 900-1500 AZN arasında dəyişir. Paketlərə səhər yeməyi, şam yeməyi, bayram proqramları və SPA xidmətləri daxildir.

Qusar istiqamətində yerləşən Shahdag Hotel & Spa və Pik Palace Shahdag hotellərində isə qiymətlər daha yüksəkdir. Bayram günləri üçün 3 gecəlik paketlərin qiyməti otaq növündən asılı olaraq 1200-2000 AZN-ə qədər yüksələ bilər.

Naftalan şəhərində fəaliyyət göstərən Garabag Resort & Spa və Chinar Hotel & Spa Naftalan hotellərində də Novruz proqramları təşkil olunur. Bu hotellərdə bayram paketləri orta hesabla 700-1300 AZN civarındadır.

Üstəlik, yuxarıdakı rəqəmlər bayrama bir həftə qalmış məlum olan qiymətlərdir. Aradan keçən müddətdə sözügedən qiymətlərin daha da artması mümkündür.

Xatırladaq ki, bu il Ramazan və Novruz bayramlarının eyni dövrə təsadüf etməsi qeyri-iş günlərinin sayını artırıb. Belə ki, 5 günlük iş həftəsi ilə çalışanlar üçün martın sonunadək ümumilikdə 11 gün qeyri-iş günü olacaq. Araşdırmalardan o da məlum olub ki, xüsusilə 20-22 mart tarixlərini əhatə edən və 2 nəfər üçün nəzərdə tutulan qiymətlər yüksək tələbat olan zonalarda - Şamaxı, Lənkəran və Qəbələ otellərində ən yaxşı halda 600-1000 AZN arasında (2 gecəlik) dəyişir.

“Unikal”ın araşdırması ötən ilin Novruz bayramı günləri ilə müqayisədə bu il hotellərin qiymətlərində ciddi bahalaşma olduğunu da ortaya qoyub. Məsələn: “Lankaran Springs Resort”da ötən il 2 gecəlik paket 840 manat olduğu halda, bu il həmin rəqəm ən azı 200 manat bahalaşıb. “Shamakhi Palace Sharadil”də isə ötən il təxminən 650 manat olan qiymətlər 300 manata yaxın artıb. Oxşar qiymət artımları digər məşhur hotellərin əksəriyyətində müşahidə olunur. Bahalaşma məbləği bir qayda olaraq 150-200 manatdan başlayır, bəzi hallarda 400-500 manatadək yüksəlir.

Bu anormallıq fonunda quru sərhədlərinin bağlı olmasına baxmayaraq Azərbaycandan ötən il təkcə Gürcüstana 292 min nəfərin səfər etməsinə təəccüblənməmək lazımdır. Üstəlik, 2025-ci ildə azərbaycanlı turistlər qonşu ölkədə nə az, nə çox, düz 223 milyon dollar xərcləyiblər. Yəni hardasa 400 milyon manata yaxın! Bir az da dəqiqləşdirsək, bir nəfərə orta hesabla 764 dollar (1 298 manat)!

Məlumat üçün bildirək ki, Azərbaycan Dövlət Statistika Komitəsi də turizm məqsədilə Gürcüstana səfər edən Azərbaycan vətəndaşları ilə bağlı məlumat açıqlamışdı. Qurumun məlumatında bildirilirdi ki, 2025-ci ildə turizm məqsədilə Gürcüstana 129 min 204 nəfər Azərbaycan vətəndaşı gedib. Azərbaycan vətəndaşlarının bu ölkədə xərclədikləri vəsait isə 138 milyon manat (81,2 milyon dollar) olub. Komitənin açıqladığı məlumatdan belə görünür ki, bir nəfərə düşən orta xərc isə 628 dollar (1 068 manat) olub.

Hər bir halda belə məlum olur ki, quru sərhədlərinin bağlı olması belə, azərbaycanlıların Gürcüstanda turist olaraq yüz milyonlarla manat xərcləməsini əngəlləməyib. Ekspertlərin fikrincə, səbəb qonşu ölkədə turizm xidmətinin keyfiyyətcə yüksək, qiymətlərin isə Azərbaycanla müqayisədə daha münasib olmasıdır. Açığı, bu ilki Yeni il və Novruz bayramı günlərində hotellərdəki qiymətləri diqqətə aldıqda, ekspertlərə haqq qazandırmaya bilmirsən.

Dövlət Turizm Agentliyi isə təəssüf ki, illərdən bəridir “öz ənənəsinə” sadiqdir: qurum yaranmış bu vəziyyəti sakitcə, sanki hər hansı məsuliyyəti yoxmuş kimi kənardan seyr etməklə, artıq aşkar soyğunçuluq xarakteri alan, getdikcə sıravi vətəndaş üçün əlçatmaza çevrilən fantastik turizm qiymətlərinə (ən yaxşı halda bazar iqtisadiyyatının şərtlərini və tələblərini əsas gətirərək!) göz yummaqla məşğuldur...

***Sənan Mirzə***

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:04 PM Page 4



# Hörmüz boğazındakı hərbi gərginlik qlobal iqtisadiyyatı təhdid edir

## Politoloq: "Boğazdakı mürəkkəb vəziyyət neftin qiymətlərinin sürətlə artımına səbəb olub ki, bu da Vaşinqtonu problemdən çıxış yolları axtarmağa məcbur edir"



***"Vaşinqton Çin Xarici İşlər Nazirliyinin Hörmüz boğazındakı hərbi gərginliyin qlobal iqtisadiyyata vurduğu zərərlə bağlı bir neçə gün əvvəl yaydığı bəyanata əhəmiyyət vermədi".***

"Unikal" xəbər verir ki, bu fikirləri, politoloq Elxan Şahinoğlu bildirib. Onun sözlərinə görə, həmin bəyanatda bölgədə sabitliyin pozulmasının beynəlxalq enerji və ticarət marşrutlarını birbaşa təhdid edildiyi vurğulanmışdı: "Pekin artıq neçənci dəfədir ki, tərəfləri dərhal hərbi fəaliyyətləri dayandırmağa və eskalasiyadan qaçmağa çağırıb. Hörmüz boğazından neft məhdud şəkildə daşınarkən, mayeləşdirilmiş təbii qazın hərəkəti faktiki olaraq dayanıb. Sığorta şirkətləri Hörmüz boğazından neft və qazı daşınmasını həyata keçirən tankerlərlə müqavilə bağlamaq istəmirlər. Sığorta şirkətlərinin bir qismi isə tarifləri kəskin şəkildə artırıblar".

Politoloq hesab edir ki, Hörmüz boğazındakı mürəkkəb vəziyyət və bu bölgədən neftin daşına bilməməsi Vaşinqtonu narahat etmir: "Çünki ABŞ-nin Hörmüz boğazından daşınan neftə ehtiyacı yoxdur. Buna baxmayaraq, boğazdakı mürəkkəb vəziyyət neftin qiymətlərinin sürətlə artımına səbəb olub ki, bu da Vaşinqtonu problemdən çıxış yolları axtarmağa məcbur edir. Vaşinqtonun Avropa ölkələrinə "Hörmüz boğazından keçidin təhlükəsizliyinə dəstək verin" çağırışı nəticə vermədi. Vaşinqton eyni çağırışı Pekinə də etmişdi. Ancaq Çin Nörmüz boğazından tankerlərin keçidinin təhlükəsizliyinin təminatına dəstək verərsə və həmin bölgəyə hərbi gəmilərini göndərərsə, bu, Pekinin ABŞ-la İsrailin İrana qarşı apardığı müharibəyə dəstək verməsi mənası daşıyacaq. Pekin buna razılaşa bilməz. Çin Hörmüz boğazı probleminin həlli yolunu müharibənin dərhal dayandırılmasında görür.

Vaşinqton Hörmüz boğazındakı mürəkkəb vəziyyət səbəbindən Rusiya neftinin və qazının satışına qoyduğu sanksiyaları müvəqqəti olaraq dondurub. Bundan birinci istifadə edən ölkə Hindistan olub. Vaşinqton İrana qarşı müharibədən əvvəl Hindistana Rusiyadan neft alışını dayandırması tələbini qoymuşdu. Vaşinqton İrana qarşı müharibə fonunda bu tələbindən imtina edib. Bundan istifadə edən Hindistan Rusiyadan ucuz neft alışını artırıb. Qısa zaman kəsiyində Rusiyadan çıxan neftlə dolu 7 tanker Hindistan limanlarına yaxınlaşıb. Bu tankerlərdəki neftin bir qismi Çin üçün nəzərdə tutulsa da, sonradan marşrut dəyişdirilib. Vaşinqtonun icazəsi alındıqdan sonra Hindistanın neftayırma zavodları Rusiyadan 30 milyon barel neft alıblar. Hindistan Rusiyadan daha çox neft almaqla ehtiyatını artırmağa çalışır. Çünki İrana qarşı müharibə dayandırılsa, Vaşinqton yenidən Rusiya neftinin alışına qadağa qoyacaq".

***Seymur Əli***

# "Bu dəyişiklik sui-istifadə hallarının qarşısını alacaq" - Komitə sədri

***"Dövlət qulluqçuları bəzən bundan narahat olurlar ki, yəqin, mükafat, əlavə almayacağıq və s. Amma onlar unudmayacaqlar. Əməkhaqqında artım olacaq. Onlar alacaqları əlavəni və mükafatı hər ay stabil olaraq əməkhaqqının tərkibində ala biləcəklər".***

Bunu "Unikal"a açıqlamasında "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası"nın İcraiyyə Komitəsinin sədri, ƏƏSMN yanında İctimai şuranın üzvü Sahib Məmmədov deyib.

Onun sözlərinə görə, əməkhaqqına artım edilməklə vahid və sabit bir əməkhaqqı sistemi tətbiq ediləcək: "Hazırda qüvvədə olan "Dövlət qulluğu haqqında" qanuna görə, dövlət qulluqçularının maaşı dövlət maaşından, ona edilən əlavələrdən və mükafatlardan ibarətdir. Əlavələr də, əsasən, iki hissədən ibarətdir: Staja və hakimiyyət səlahiyyətinə görə. İndi bunların hamısı optimallaşdırılacaq.



Bunun müsbət tərəflərindən biri odur ki, gənc dövlət qulluqçuları əlavələr ala bilmirdilər. İndi onların əməkhaqqında atım olacaq və bu, gəncləri dövlət qulluğuna gəlməyə həvəsləndirəcək. Mən özüm Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın üzvüyəm və bilirəm ki, gənclər çox vaxt aşağı əməkhaqqına görə dövlət qulluğuna gəlmirlər.

İkincisi, burada sui-istifadə halları ola bilirdi. Yəni, birinə verilirdi, birinə verilmirdi və s. İndi onun qarşısı alınacaq. Həm də bunu proqnozlaşdırmaq artıq dövlət üçün asan olacaq. Məsələn, bilinir ki, dövlət qulluğunda nə qədər şəxs var və onlara nə qədər əməkhaqqı ödəniləcək.

Dəyişiklikləri hazırda həyata keçirilən dövlət idarəetmə sisteminin optimallaşdırılması ilə bağlı yeniliklər çərçivəsində həyata keçirilən müsbət bir islahat hesab edirəm".

Qeyd edək ki, dövlət qulluğunda mükafat sistemi, dövlət qulluqçusuna staja, hakimiyyət səlahiyyətinə görə, habelə vəzifə maaşının müəyyən edilmiş misli qədər verilən, dövlət büdcəsi hesabına ödənilən əlavələr, həmçinin dövlət qulluqçuları üçün müalicə müavinəti ləğv edilir. Dövlət qulluqçularının təminatlarından ləğv edilmiş bu əlavələr onların vəzifə maaşlarının baza hissəsinə daxil edilib.

***Ağarza Elçinoğlu***



# "İrandan dron hücumunun araşdırılmasını gözləyirik" - Nazir

***Azərbaycan İranın Naxçıvana pilotsuz uçuş aparatı (PUA) zərbəsi ilə bağlı insidentin hərtərəfli araşdırılması barədə verdiyi təminatları yerinə yetirəcəyinə və gələcəkdə bu cür halların qarşısının alınması üçün zəruri tədbirlər görəcəyinə ümid edir.***

"Unikal" xəbər verir ki, bunu Ceyhun Bayramov Ər-Riyadda (Səudiyyə Ərəbistanı) XİN başçılarının məsləhət görüşündə bəyan edib.

C.Bayramov görüş iştirakçılarına xatırladıb ki, martın 5-də İran ərazisindən uçan PUA-lar Azərbaycanın Naxçıvan Muxtar Respublikasının infrastrukturuna zərbələr endirib. Nəticədə dörd mülki şəxs xəsarət alıb və Naxçıvan Beynəlxalq Hava Limanı da daxil olmaqla kritik infrastruktura əhəmiyyətli ziyan dəyib.

# "Bəzi qüvvələr yeni sentyabr müharibəsi hazırlayır" - Paşinyan

***"Bəzi qüvvələr ağır nəticələrə səbəb olacaq yeni bir sentyabr müharibəsi hazırlayırlar".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

"Müharibənin tərəfi hər gün daha da aydınlaşır, çünki bu partiyalar və dairələr sülhə qarşı olmadıqlarını deyirlər. İkincisi isə, hakimiyyətə gəldikləri təqdirdə sülhü yenidən nəzərdən keçirməyə başlayacaqları barədə danışmağa başlayırlar. Birbaşa, heç bir bəhanə olmadan demək istəyirəm ki, bu, təkcə Ermənistan Respublikasının ərazisinin deyil, həm də suverenliyinin itirilməsi ilə nəticələnən bir müharibə olar, - deyə o bildirib.

Hökumət başçısı vurğulayıb ki, bəziləri nə dediklərini belə başa düşmürlər: "Dediklərini başa düşməyən qüvvələr və siyasi xadimlər Ermənistan Respublikasında heç bir rəsmi statusa iddia etməməlidirlər.

Həmin qüvvələr sülhün yenidən baxılması mövqeyindən çıxış edir ki, bu da qaçılmaz müharibə deməkdir. Bu, seçkilərdən çox keçmədən, ən geci payızda baş verəcək".

O, lazım gələrsə, adlar çəkə biləcəyini də qeyd edib.

***Ağarza Elçinoğlu***

# Əraqçi Makronu tənqid etdi

***İranın xarici işlər naziri Abbas Əraqçi Fransa prezidenti Emmanuel Makronu ölkənin infrastrukturuna edilən hücumlarla bağlı mövqeyinə görə tənqid edib.***

"Unikal" xəbər verir ki, bu barədə o, "X" sosial media səhifəsində yazıb.

Əraqçi qeyd edib ki, Fransa lideri Amerika və İsrailin İrana hücumlarını pisləmir: "O, İsrailin Tehranda yanacaq anbarlarını partlatması və milyonlarla insanın toksinlərə məruz qalması ilə bağlı ittiham irəli sürə bilməyib".

Onun sözlərinə görə, Makronun "narahatlığı" İsrailin İranın qaz obyektlərinə endirdiyi zərbələrdən deyil, Tehranın cavab tədbirlərindən qaynaqlanır.

Nazir Makronun mövqeyini "kədərli" sözü ilə qiymətləndirib.

***Gülayə Mecid***

11+_27 IYUI-QARA.qxd 3/19/2026 10:04 PM Page 5



# Prezident Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik məktubu ünvanlayıb.***

"Unikal"ın məlumatına görə, təbrikdə deyilir:a

"Hörmətli həmvətənlər! Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Mənəvi-əxlaqi kamilliyi və nəcib niyyətləri özündə təcəssüm etdirən, insanların ruhunu və təfəkkürünü saflaşdıran on bir ayın sultanı Ramazan artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, yardımlaşma, şəfqət və mərhəmət kimi xeyirxah əməllərin sevincini yaşayırlar.

Azərbaycan yüzillərdir ki, ayrı-ayrı etiqad və inancların əmin-amanlıq şəraitində dinc yanaşı mövcud olduğu nadir məkanlardandır. Bəşəriyyəti daim sülhə, humanizmə və qardaşlığa dəvət edən İslam dini tarixən cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin və milli-mənəvi həmrəyliyin bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir, xeyirxahlığın və savab əməllərin təntənəsinə çevrilir. Bu mübarək günlərdə dövlətimizin əmin-amanlığı, firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qoşulur, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!".

# Azərbaycanda yeni agentlik yaradıldı - Fərman

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb.

Fərmanla İTSDA və ƏƏSMN-nin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin birləşmə formasında yenidən təşkili yolu ilə nazirliyin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxs yaradılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İTSDA-nın bu səlahiyyətləri TƏBİB-ə verildi

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsi ilə bağlı hüquq və öhdəlikləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə keçib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Fərman imzalayıb.

# Hikmət Hacıyev Şimali Baltik Səkkizliyi ölkələrinin siyasi direktorları ilə görüşdü

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının (PA) xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Nordic-Baltic Eight" (Şimali Baltik Səkkizliyi) ölkələrinin siyasi direktorları ilə görüşüb.***



"Unikal" xəbər verir ki, o, bu barədə "X" sosial media hesabında yazıb.

"Nordic-Baltic Eight (NB8)" ölkələrinin siyasi direktorları ilə səmərəli fikir mübadiləsi apardım. Bu, NB8-in Azərbaycana ikinci belə səfəridir və biz məmnunuq ki, NB8 ilə Azərbaycan arasında siyasi dialoq və məsləhətləşmələr inkişaf etməkdə davam edir", - paylaşımda qeyd olunub.

# Baş nazir qərar imzaladı

***Nazirlər Kabineti "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nı təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, müayinə və texniki xidmət məlumatları üzrə reyestrin yaradılması, fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər "Qaz təchizatı haqqında" qanunun 17.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq qazpaylayıcı sistem operatorunun vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcək. Reyestrin sahibi və operatoru qazpaylayıcı sistem operatorudur.



# "ASAN xidmət" işçilərinin sosial müdafiəsi gücləndirildi

***Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, Fərmanla müəyyən edilib ki, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar




üzrə Dövlət Agentliyinin və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin mükafatlandırılması məqsədilə 26.600.000 (iyirmi altı milyon altı yüz min) manat məbləğində vəsait hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində nəzərdə tutulur.

Agentlik tələb olunan vəsaitin növbəti ilin dövlət büdcəsində nəzərdə tutulması üçün təkliflərini hər il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməli, nəzərdə tutulmuş vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

# Anar Əliyevin müavinlərinin sayı artırıldı

***Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinlərinin sayı artırılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, nazirin Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 (bundan əvvəl 4 idi - red.) müavini var.

Qeyd edək ki, nazirin müavinləri onlara nazir tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar. Xatırladaq ki, hazırda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevdir.

# DİM buraxılış imtahanları ilə bağlı sorğu keçirir

***Dövlət İmtahan Mərkəzi (DİM) martın 9 və 15-də keçirilmiş buraxılış imtahanlarından sonra iştirakçıların imtahan təcrübəsinin öyrənilməsi məqsədilə onlayn sorğu keçirir.***

DİM-dən "Unikal"a bildirilib ki, sorğunun keçirilməsində əsas məqsəd imtahan prosesi ilə bağlı iştirakçıların fikirlərini öyrənmək və ümumi məmnunluq səviyyəsini qiymətləndirməkdir. Əldə olunacaq nəticələr imtahanların təşkilinin daha da təkmilləşdirilməsi istiqamətində istifadə olunacaq.

Sorğuda martın 9 və 15-də buraxılış imtahanı vermiş şagirdlər iştirak edə bilərlər. DİM bütün imtahan iştirakçılarını sorğuda fəal iştirak etməyə dəvət edir.

Şagirdlər "Sorğu bölməsində" iş nömrəsi (8 rəqəmli şagird kodu), soyad, ad və ata adını müvafiq hissələrə daxil edib sorğuda iştirak edə bilərlər.



# Reabilitasiya müəssisələri bu agentliyin tabeliyinə veriləcək

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki reabilitasiya müəssisələrinin Sosial Xidmətlər Agentliyinin tabeliyinə veriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Sənədə əsasən, prosesin üç ay müddətində tamamlanması nəzərdə tutulub.

11_27 IYUI-QARA.qxd 3/19/2026 11:35 PM Page 6



# Dövlət qulluqçularının yeni əməkhaqqı sistemi formalaşdı

***"Dövlət qulluğu haqqında" qanunda və müvafiq qanunvericilik aktlarında edilən dəyişikliklər dövlət qulluqçularının əmək haqqı sistemində mühüm yenilikləri nəzərdə tutur. Belə ki, mükafat sistemi, staja və hakimiyyət səlahiyyətinə görə verilən əlavələr, eləcə də müalicə müavinəti ləğv edilərək vəzifə maaşının baza hissəsinə daxil edilir. Bu dəyişikliklər əmək haqqı mexanizminin daha şəffaf, sabit və vahid prinsip əsasında qurulmasına yönəlib. Bəs bu yanaşma praktikada hansı nəticələr vəd edir?***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri, Maliyyə Nazirliyi yanında İctimai şuranın üzvü, iqtisad üzrə elmlər doktoru, professor Elşad Məmmədov hesab edir ki, dövlət qulluğunda əlavələrin maaşın tərkibinə daxil edilməsi vasitəsilə vahid strukturun qurulması olduqca böyük əhəmiyyət kəsb edir. Bu yanaşma həmin sahədə optimallığı, proqnozlaşdırıla bilənliyi, sabitliyi və effektiv modelin formalaşdırılmasını özündə ehtiva edir. Dövlət qulluqçularının əmək haqlarının bu model əsasında müəyyən edilməsi nəticəsində onların proqnozlaşdırıla bilən olması təmin ediləcək: "Bununla yanaşı, sabitlik də əmək haqqı sistemində olduqca böyük əhəmiyyət daşıyan amillərdəndir. Bu mexanizmin tətbiqi ilə sabitlik də təmin olunacaq. Hazırda əmək bazarında formalaşan çağırışlar kontekstində dövlət qulluqçularının əmək haqqı sisteminin effektivliyi vasitəsilə dövlət qulluğuna motivasiyanın yüksək səviyyədə saxlanılması mühüm əhəmiyyət kəsb edir. Bu yeni modelin tətbiqi bu istiqamətdə də çox müsbət nəticələr verə bilər. Bununla yanaşı, bu gün özəl sektorda, xüsusilə bəzi sahələr üzrə əmək haqlarının yüksək olmasının gənc mütəxəssislərin həmin sektora yönəlməsinə səbəb olduğu müşahidə olunur. Özəl sektorda əmək haqlarının yüksək olması, təbii ki, müsbət haldır və iqtisadiyyatın inkişafına təkan verir. Lakin eyni zamanda dövlət qulluqçularının yüksək peşəkarlığının təmin edilməsi də olduqca vacibdir. Bu baxımdan dövlət qulluğunda effektiv əmək haqqı sistemi mühüm rol oynamalıdır. Yeni modelə keçid bu sahədə müsbət dəyişikliklərin baş verməsini təmin edəcək".

Elşad Məmmədov vurğulayıb ki, beynəlxalq təcrübə və aktual iqtisadi tədqiqatlar nəzərə alınmaqla yeni modelin tətbiqi şəffaflığın artırılmasına, əmək haqqı sisteminin daha effektiv qurulmasına, gənc mütəxəssislərin peşəkarlığının yüksəldilməsinə və onların dövlət qulluğuna cəlb olunmasına şərait yaradacaq: "Bütün bunlar bir tərəfdən iqtisadiyyatın inkişafına və stimullaşdırılmasına müsbət təsir göstərəcək, digər tərəfdən isə dövlət qulluqçularının sosial müdafiəsinin daha da gücləndirilməsi üçün əlverişli şərait formalaşdıracaq".

"Azad İqtisadiyyatın İnkişafına Yardım Mərkəzi" İctimai Birliyinin üzvü, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü Aslan Əzimzadə qeyd edib ki, dövlət qulluqçularının əmək haqqı sistemində tətbiq edilən yeni yanaşma əmək haqqı mexanizminin vahid struktur əsasında təşkilini, onun optimal, proporsional, balanslı və davamlı modelə keçirilməsini nəzərdə tutur: "Bu isə öz növbəsində dövlət qulluğunda insan resurslarının idarə olunmasında səmərəliliyin artırılması baxımından mühüm institusional amil kimi çıxış edə bilər. Əvvəlki dövrlərdə müxtəlif əlavələr formasında ödənilən əmək haqqı komponentlərinin vəzifə maaşı ilə inteqrasiya olunması əmək haqqı sisteminin vahid struktur çərçivəsində formalaşmasını təmin edir. Bu yanaşma əmək haqqı sistemində mövcud olan fraqmentasiyanı aradan qaldırır, onun daha sabit və proqnozlaşdırıla bilən xarakter almasına imkan yaradır. Eyni zamanda bu dəyişikliklər dövlət qulluqçularının sosial təminat səviyyəsinin yüksəldilməsinə və gəlir sabitliyinin gücləndirilməsinə xidmət edir".



Aslan Əzimzadə bildirib ki, həyata keçirilən islahatın nəzəri və praktiki əhəmiyyəti ilk növbədə əmək haqqı sisteminin şəffaflıq, ədalətlilik və proporsionallıq prinsipləri əsasında formalaşdırılması ilə şərtlənir: "Əmək haqqının tərkib elementlərinin açıq və aydın müəyyən edilməsi dövlət qulluğunda nəticəyönümlü idarəetmə modelinin tətbiqinə və motivasiya mexanizmlərinin uzunmüddətli perspektivdə gücləndirilməsinə şərait yaradacaq. Ümumilikdə qeyd etmək lazımdır ki, həyata keçirilən bu yeni yanaşma və institusional islahat dövlət idarəçiliyində şəffaflıq, hesabatlılıq və effektivlik prinsiplərinin daha da möhkəmləndirilməsinə yönəlmişdir. Bu isə öz növbəsində uzunmüddətli perspektivdə dövlət aparatının funksional çevikliyinin artırılmasına, insan kapitalından daha səmərəli istifadəyə və ölkənin sosial-iqtisadi inkişafının dayanıqlılığının təmin olunmasına mühüm töhfə verə bilər".

Aslan Əzimzadə beynəlxalq təcrübəyə də diqqət çəkib: "Burada xüsusi qeyd olunmalı məsələlərdən biri də məhz sözügedən yanaşma ilə bağlı beynəlxalq təcrübədir. Əgər buna nəzər salsaq, görərik ki, müxtəlif Şərqi Avropa və Cənub-Şərqi Asiya ölkələrində aparılan empirik tədqiqatlar nəticəsində dövlət qulluqçularının əmək haqları ilə qeyri-şəffaflıq problemləri arasında müəyyən korrelyasiya, yəni əlaqə aşkar edilib. Bu baxımdan xüsusilə Honq Konq təcrübəsini qeyd etmək olar. Honq Konqda dövlət xidmətində əmək haqqı sisteminin dəyişdirilməsi ilə bağlı aparılmış empirik tədqiqatlar göstərir ki, dövlət qulluqçularının əmək haqlarının 10 faiz artırılması qeyri-şəffaflıqla bağlı şikayətlərin təxminən 4 faiz azalmasına səbəb olub. Eyni zamanda, bu sahədə cinayət işləri üzrə məhkumluq hallarının da azalması müşahidə edilib. Bu isə, təbii ki, ümumilikdə müsbət nəticə kimi qiymətləndirilə bilər və əmək haqqı sistemində aparılan islahatların institusional şəffaflığa təsirini göstərən mühüm nümunələrdən biri hesab olunur".



## Zaur Əliyev vəzifəsini itirdi

***Xəbər verdiyimiz kimi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Bununla da Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev vəzifə səlahiyyətlərini itirib. Onun səlahiyyətləri əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevə həvalə olunub.

## "Bakı Marafonu 2026"ya qeydiyyat davam edir

***Mayın 3-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək "Bakı Marafonu 2026"ya qeydiyyat davam edir. 42 km-lik tam marafona qoşulmaq istəyənlər aprelin 25-dək www.marathon.az saytından və ya 28 Mall, Dəniz Mall, Gənclik Mall ticarət mərkəzlərindəki məntəqələrdə qeydiyyatdan keçə bilərlər. Tələbələr üçün qeydiyyat pulsuzdur.***

"Unikal" xəbər verir ki, 2016-cı ildən Bakıda ənənəvi təşkil olunan 21 km-lik yarımarafon bu il ilk dəfə 42 kilometrlik tam marafon olaraq baş tutacaq. Həmişəki kimi Dövlət Bayrağı Meydanından start götürəcək marafonun finiş xətti isə bu dəfə Sea Breeze ərazisi olacaq.

Bununla yanaşı, marafonun iştirakçılarını və tamaşaçıları müxtəlif əyləncələr gözləyir.Start zonasında fərqli əyləncə sahələri, atletlər üçün isinmə zonası qurulacaq, böyük səhnədə sevilən sənətçilərin iştirakı ilə konsert keçiriləcək.

Marafonun əhatə edəcəyi marşrut boyunca iştirakçıları ruhlandırmaq məqsədi ilə müxtəlif motivasiya zonaları, həmçinin su və ilk tibbi yardım məntəqələri təşkil ediləcək. Ümumilikdə marşrut boyu 20 əyləncə nöqtəsi olacaq.

"Bakı Marafonu 2026"nın mükafatlandırılması da yeniliklərlə yadda qalacaq. 42 km-lik qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparan marafonun kişi və qadın qaliblərinin hər biri sertifikat və pul mükafatları əldə edəcək.

Bununla yanaşı, daha qısa məsafəni qət edən iştirakçıların da təltif olunması qərara alınıb. Belə ki, 42 km məsafənin öhdəsindən gələ bilməyib 21 km məsafəni qət edən ilk 2000 nəfərə medal və sertifikatlar, 10 km məsafəni tamamlayan iştirakçılara isə sertifikatlar veriləcək.

Finiş xəttini keçən "İlk tələbə" (qadın və kişi), "İlk yaşlı iştirakçı" (qadın və kişi), "İlk korporativ iştirakçı" (qadın və kişi) də mükafatçılar sırasında yer alacaqlar.

Qeyd edək ki, analoji marafonlar bu günədək London, Paris, Nyu-York, Berlin, Barselona, İstanbul və digər şəhərlərdə təşkil edilib. Marafon yarışı tam məsafədə 42 km və yarımarafon olaraq 21 km məsafədə keçirilir. 2016-cı ildən bu ənənəyə qoşulan Bakı minlərlə yerli və əcnəbi iştirakçını marafonda öz ətrafında toplayır.

11+_27 IYUI-QARA.qxd 3/19/2026 10:05 PM Page 7





## ABŞ kəşfiyyatının Azərbaycan və Ermənistanla bağlı hesabatı

***8 avqustda ABŞ-nin himayəsi altında keçirilən Ermənistan və Azərbaycan arasında Sülh Zirvəsi iki ölkə üçün davamlı sülh müqaviləsi bağlamaq üçün fürsət yaratdı. Bu, regional sabitliyin möhkəmləndirilməsinə töhfə verdi.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Milli Kəşfiyyat Xidmətinin illik hesabatında deyilir.

"Sülh sammitinin nəticələrinə bu planlar daxil edilib:

- sülh müqaviləsinin şərtləri ilə bağlı ilkin razılaşma;
- Azərbaycanı Naxçıvanla birləşdirəcək, hər iki ölkə və region üçün ticarət axınlarını açacaq "Beynəlxalq Sülh və Rifaha Doğru Tramp Yolu"nun yaradılması. Bu, ABŞ tərəfindən idarə olunacaq.

8 avqustdan bəri hər iki tərəf Sülh Zirvəsinin impulsunu qorumaq istəklərini ifadə ediblər. Ermənistan və Azərbaycan arasında sərhəddə atəşkəs pozuntuları kəskin şəkildə azalıb və hazırda demək olar ki, yoxdur. 2025-ci ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın Ermənistana yük daşınmasına qoyulan məhdudiyyətləri aradan qaldırdığını elan etdi və Ermənistanın Baş naziri Nikol Paşinyan bir neçə gün sonra oxşar bir addımla cavab verdi. O vaxtdan bəri Azərbaycan benzin göndərib və Ermənistana tranzit buğda daşınmasına icazə verib.

Hesabatda deyilir ki, yekun sülh sazişinin əldə olunmasına hələ də maneələr mövcuddur. Məsələn, Bakı Ermənistanın Konstitusiyasını dəyişdirərək Qarabağa iddia etdiyinə istinadı çıxarmasını tələb edir.

***Ağarza Elçinoğlu***

## Bu xəstəxananın direktoru işdən çıxarıldı

***Sabirabad Rayon Mərkəzi Xəstəxanasının direktoru Həsən Hüseynov vəzifəsindən azad edilib.***




"Unikal" xəbər verir ki, bununla bağlı müvafiq əmr imzalanıb. Hələlik onun yerinə təyinat olmayıb.

Qeyd edək ki, H. Hüseynov bu vəzifəyə 2023-cü ilin sentyabr ayında təyinat almışdı.

***Xəlil Əliyev***

# "Azərbaycan dünya bazarında daha dayanıqlı qiymət tarazlığında maraqlıdır"

Vüqar Bayramov: "Aydındır ki, dövlət büdcəsinin gəlirlərinin artması milli təhlükəsizlik, işğaldan azad olunan ərazilərimizin bərpası, sosial müdafiənin gücləndirilməsi kimi prioritet istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan yaradır"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, neft qiymətlərinin bahalaşmasının büdcədən hansı sahələrə ayırmalara imkan yaratmasından, 50 bal toplayan müəllimlərin də maaşının artırılmasından, vəfat edən şəxsin pensiya kapitalının vərəsələrinə verilməsindən və özəl pensiya fondlarının vətəndaşlara hansı imkanlar yaradacağından danışıb.***

***-Vüqar bəy, hazırda dünya bazarında Azərbaycan neftinin hər bareli 100 dollardan baha təklif edilir. Məlum olduğu kimi, builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 65 ABŞ dollarından hesablanıb. Neftin bahalaşması büdcədən daha çox hansı sahələrə ayırmalara imkan yarada bilər?***

-2026-cı ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 65 dollar nəzərdə tutulub. Təbii ki, illik orta qiymət bir neçə günlük və ya həftəlik, hətta aylıq qiymətlər ilə müqayisə etmək olmaz. Söhbət illik orta qiymətdən gedir. Bununla belə, "Statistika"nın hesablamalarına görə, bu ilin yanvar ayında Brent markalı neftin bir barelinin orta qiyməti 62.54 dollar, fevral ayında isə 66.6 dollar olub. FRED isə orta qiymətlərin uyğun olaraq 66.6 və 70.8 dollar olduğunu bəyan edib. Göründüyü kimi, 2026-cı ilin ilk ayında dünya bazarındakı qiymət büdcədə nəzərdə tutulandan cüzi fərqlənib. Bu ayın ilk həftəsində isə neftin qiyməti 84-90 dollar intervalında dəyişib. 2026-cı il üçün Azərbaycanın dövlət büdcəsi gəlirlərinin 43 faizinin və ya 16,4 milyard manatının neft-qaz sektorunun payına düşəcəyi gözlənilir. Bunun 12,8 milyard manatı Dövlət Neft Fondunun transferləridir.

Göründüyü kimi, neftin dünya bazar qiymətinin yüksəlməsi büdcə gəlirlərinin 3,6 milyard manatlıq hissəsinə birbaşa təsir göstərəcək. Qeyri-neft daxilolmalarına isə dolayı təsirlər qeydə alınır. Fondun transferləri öz gəlirləri hesabına ödənildiyi üçün neftin qiyməti ilə o məbləğin birbaşa əlaqəsi olmur. Amma yüksək qiymətlər Neft Fondunun gəlirlərinin və eləcə də valyuta ehtiyatlarının artmasına səbəb olacaq. Deməli, orta illik qiymət yüksək olacağı halda neft və qaz sektorundan büdcəyə daha çox vəsait daxil olacaq. Aydındır ki, dövlət büdcəsinin gəlirlərinin artması milli təhlükəsizlik, işğaldan azad olunan ərazilərimizin bərpası, sosial müdafiənin gücləndirilməsi kimi prioritet istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan yaradacaq. Daha çox gəlir, daha çox fiskal xərcləmə deməkdir. Bu, eyni zamanda, qeyri neft-qaz sektorunun inkişafı üçün maliyyə təminatını da gücləndirir. Təbii ki, Azərbaycan dünya bazarında daha dayanıqlı qiymət tarazlığında maraqlıdır. Bütün hallarda isə enerji ölkələri üçün yüksək neft qiyməti, daha çox valyuta gəliri deməkdir.

***-Sizin parlamentin iclasında müəllimlərin maaşı ilə bağlı qaldırdığınız məsələ aktualdır. Belə ki, 30-50 bal toplayanların əməkhaqqı 10.0, 51-60 ballıq nəticə göstərənlərin maaşları isə 35.0 faz artır. 30 bal toplayan müəllimlə 50 bal toplayan müəllim arasında əməkhaqqı fərqinin cəmi 10 faiz olması müəyyən mənada ədalət prinsipini tam təmin etmir. Bu baxımdan hansı addımlar atılmalıdır və həmin faizin dəyişməsi təxminən nə qədər müəllimin maaş artımına səbəb olar?***

-Sertifikatlaşdırma imtahanında iştirak edən müəllimlərin əməkhaqlarının artırılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərimiz təhsilverənlərin sosial təminatının daha da yaxşılaşdırılması məqsədi daşıyır. Bütövlükdə 80% və daha yüksək bal toplayan müəllimlərin əməkhaqqının 35% artırılması daha məqsədəuyğundur. Hazırda 51 və 60 bal intervalında nəticə göstərən müəllimlərin əməkhaqqı 35 faiz artır. 48 bal toplamaq 80% nəticə deməkdir. Beynəlxalq standartlarda 80% daha yüksək faiz kimi nəzərdə tutulub. Ona görə beynəlxalq standartlara uyğun olaraq 80% və daha yüksək nəticə göstərmiş müəllimlərin əməkhaqlarının 35 faiz artırılması məqsədəuyğun olardı. Son statistikaya əsasən, hazırda 40 mindən çox müəllimin əməkhaqqında artımlar qeydə alınıb. Onların təxminən 22%-i əməkhaqqı məhz 35 faiz artırılan müəllimlərdir. Yəni, 51 və daha yüksək nəticə göstəriblər. Bizim təklif etdiyimiz mexanizmin qəbul edilməsi minlərlə müəllimin əməkhaqqının 10% deyil 35% artmasına gətirib çıxara bilər. Təbii ki, bu da daha çox müəllimin yüksək əməkhaqqı artımlarından faydalanmasına imkan yaradacaq.

***-Sosial sahələri əhatə edən məsələlərdən danışarkən pensiya əsas yer tutur. Son günlər vəfat edən şəxslərin pensiya kapitalının vərəsəyə verilməsi yenidən gündəmə gəlib. Xeyli pensiya kapitalı toplayan, amma pensiyaya çıxmadan vəfat edən şəxslər var. Onların pensiya kapitalı hansı formada ailə üzvlərinə verilməlidir?***

-Dünyasını dəyişən şəxslərin pensiya kapitalının istifadə edilməsi məsələsi Milli Məclisin Əmək və sosial siyasət komitəsində də müzakirə olunmuşdu. Deputat həmkarım tərəfindən həmin kapitalın 30%-nin vəfat edən şəxsin varisinə ödənilməsi təklif olunurdu. Biz də dünyasını dəyişən şəxslərin pensiya kapitalının bir hissəsinin onun vərəsəsinə ödənilməsinin tərəfdarıyıq. Bu, həm pensiya kapitalının toplanması, daha səmərəli istifadə edilməsi, həm də vətəndaşlarımızın pensiya kapitalını toplamağa marağının artmasına gətirib çıxara bilər. Bir tərəfdən əmək müqavilələrinin rəsmiləşdirilməsi, digər tərəfdən isə pensiya kapitalının səmərəli istifadəsi deməkdir. Həm kapitaldan səmərəli istifadə olunur, həm də kapital yığımlarına marağın artırılması baxımından belə mexanizmin tətbiqi məqsədəuyğundur. Bu istiqamətdə də təkliflərimizi təqdim etmişik. Maliyyə qiymətləndirilməsinin aparılması və uyğun qərarların qəbul edilməsini məqsədəuyğun hesab edirik.



***-Pensiya məsələsi cəmiyyətdə aktual mövzu olduğu üçün özəl pensiya fondlarının yaradılması məsələsinə diqqət çəkmək istərdim. Bu fondların yaradılması ilə bağlı işlər gedirdi. Belə fondlar bu il ərzində fəaliyyətə başlaya bilərmi?***

-Özəl pensiya fondlarının yaradılması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işlər davam etdirilir. Nazirliyin açıqladığı məlumatlara əsasən, artıq 20-yə yaxın qanunverici akta dəyişikliklərin edilməsi və qanunvericiliyin bu istiqamətdə təkmilləşdirilməsi reallaşa bilər. Uyğun qanunverici aktlar Milli Məclisə təqdim edildikdən sonra bu istiqamətdə müzakirələrə başlanılacaq. Dünya praktikasında özəl pensiya fondları paralel yığım imkanları deməkdir. Vətəndaş özəl pensiya fonduna vəsait yönəltməklə həmin pensiya fondunda müəyyən kapitala malik olur. Bu, vətəndaşın pensiya yaşında iki mənbədən pensiya almasına gətirib çıxarır. Həm Dövlət Sosial Müdafiə Fondundan, həm də özəl pensiya fondundan pensiya alınması anlamına gəlir. Nəticədə vətəndaşın pensiya yaşında pensiya məbləğinin artması deməkdir. Dünya praktikasında özəl pensiya fondunda yığılan kapitalın daha tez istifadə imkanları var. Özəl pensiya fondu ilə vətəndaş arasında bağlanmış müqaviləyə əsasən, kapitalın bir hissəsinin birdəfəlik götürülməsi mümkün olur. Güman edirik ki, oxşar praktika Azərbaycanda da tətbiq olunacaq. Yığılan kapitalın bir hissəsinin vətəndaş tərəfindən daha tez istifadə olunması özəl pensiya fondlarına marağın artmasına və bu yığımların səmərəliliyinin yüksəlməsinə gətirib çıxaracaq.

***Anar Kəlbiyev***

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:05 PM Page 8



# Füzuli Ələkbərovun yeni şirkətinin gizlinləri

## Sabiq nazirlə Çin vətəndaşının rəhbərlik etdiyi 1 milyon dollarlıq MMC-nin nə əlaqəsi var? - İlginc təfərrüatlar

***Azərbaycanda Çin vətəndaşı Vanq Veujunun rəhbərlik etdiyi yeni şirkət dövlət qeydiyyatına alınıb. Həmin şirkət "Dongfeng-İmprotex Az Aqro" MMC (VÖEN - 1103197561) adlanır. Onun nizamnamə kapitalı 1 milyon dollara bərabərdir.***

Yeni yaradılan şirkətin hüquqi ünvanı "Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan ŞTQ, Salyan şosesi, ev 4, 15-ci km"də yerləşir.

"Yeni avaz" qeyd edir ki, bu ünvanda "İmprotex Demining" MMC (VÖEN - 1102463331) və "İmprotex Travel" MMC (VÖEN - 1102181721) adlı şirkətlər də qeydiyyatdadır.

Məlumat üçün bildirək ki, "İmprotex Travel" ölkənin aparıcı şirkətlər qruplarından biri olan "İmprotex Group"a daxildir. Şirkətlər qrupunun sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərova məxsus olduğu bildirilir.



Nəsimi rayonu, 20 Yanvar küçəsi, ev 33 ünvanında qeydiyyatda olan "İmprotex Motors" MMC-nin (VÖEN - 1400064731) qanuni təmsilçisi də Füzuli Ələkbərovdur. BMW, "Rolls-Royce", MINI və "Yamaha" kimi avtomobil markalarının Azərbaycanda rəsmi idxalçısı olan "İmprotex Motors" MMC 1997-ci ildə dövlət qeydiyyatına alınıb.

Onu da bildirək ki, "Dongfeng" - Çinə məxsus avtomobil markasıdır. Bu avtomobillər Çinin "Dongfeng Motor Corporation Ltd." şirkəti tərəfindən istehsal olunur. Bu şirkət Çinin ən böyük avtomobil istehsalçılarından biridir. 1969-cu ildə qurulan şirkətin baş ofisi Uhandadır.

"Unikal" xatırladır ki, son illərdə dünyada, o cümlədən Azərbaycanda Çin avtomobillərinə maraq artıb. Araşdırmamız nəticəsində məlum olub ki, bir neçə ildir qlobal avtomobil sənayesində mühüm dəyişikliklər baş verir və bu dəyişikliklərin mərkəzində Çin istehsalçıları dayanır. Əvvəllər daha çox daxili bazara yönəlmiş Çin avtomobil sənayesi artıq qlobal miqyasda əsas oyunçulardan birinə çevrilib. Belə ki, təkcə 2025-ci ildə Çin istehsalçıları təxminən 27 milyon avtomobil sataraq ilk dəfə Yaponiya avtomobil şirkətlərini geridə qoyublar. Hətta Çin artıq dünya avtomobil istehsalının təxminən 30%-ni təmin edir. 2025-ci ildə Çin avtomobil ixracı 7 milyon ədədi keçib, 21% olub.

Bu yüksəlişin əsas səbəbləri - Çin avtomobillərinin daha münasib qiymətə yüksək texnoloji imkanlar (ADAS sistemləri, elektrik və hibrid texnologiyalar) təklif etməsi və elektrikli nəqliyyat vasitələrində liderlikdir.

Azərbaycanda ötən il avtomobil satışları təxminən 70 min ədədə çatıb və bunun yarıdan çoxunu Çin markaları təşkil edib. Halbuki 2024-cü ildə həmin pay təxminən 20% idi. Bu gün ölkəmizdə BYD, Changan, Geely kimi brendlər geniş model çeşidi ilə daha çox alıcı tapır.

2025-ci ildə yüz minlərlə avtomobil satan "Dongfeng" hələ ki, Azərbaycan bazarında lider mövqedə deyil. Lakin belə güman etmək olar ki, Füzuli Ələkbərovun yaratdığı yeni şirkət sayəsində biz sözügedən avtomobil markasının da ölkə bazarında ciddi paya yiyələnəcəyinin şahidi olacağıq. Bu, eyni zamanda uzun illərdir şəxsi biznesində durğunluq müşahidə olunan sabiq nazirin əvvəlki qüdrətini özünə qaytarmaq istiqamətində növbəti həmləsi sayıla bilər. Belə ki, Ələkbərov bir müddətdir milyonluq tenderləri təzədən udmağa başlayıb, onun bir vaxtlar çöküş yaşayan holdinqi - "İmprotex Group" sürətlə güclənməkdədir. Görünən odur ki, eks-nazir Çinin məşhur avtomobil markalarından birinin rəsmi distribütoruna çevrilməklə sözügedən prosesi daha da qətiyyətli şəkildə davam etdirməkdə qərarlıdır.

Xatırladaq ki, "Improtex" şirkətlər qrupu 1991-ci ildə yaradılıb. F.Ələkbərov nazir işlədiyi müddətdə holdinqə onun həyat yoldaşı İradə Ələkbərova rəhbərlik edib. Hazırda şirkətlər qrupuna "İmprotex Trucks & Buses", "İmprotex Industries", "İmprotex Motors" və "Imagro" kimi törəmə şirkətlər daxildir. Bu şirkətlərin əməkdaşlıq etdiyi dünya brendlərinə "Rolls Royce", "BMW", "MAN Truck & Bus SE", "Bobcat", "Massey Ferguson", "Hardox" və başqa bir neçə dünya nəhəngləri daxildir.

Yada salaq ki, 2013-cü ildə İsmayıllı rayonunun sabiq İcra başçısı Nizami Ələkbərovun oğlu Elxan Ələkbərov və qardaşı, keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi (ƏƏSMN) naziri Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərovun "Hummer" markalı maşını ilə İsmayıllı şəhərindəki "Çıraq" otelindən çıxarkən taksi sürücüsünün maşınını vurmuşdu. Daha sonra yaranan mübahisədə Elxan Ələkbərov sürücüləri söymüş, təhqir eləmişdi. Bu isə İsmayıllıda yerli əhalinin qəzəbinə səbəb olmuş və iğtişaşlara səbəb olmuşdu. Nəticədə öncə Nizami Ələkbərov, çox keçmədən isə Füzuli Ələkbərov vəzifəsindən azad olunmuşdu. Bundan sonra sabiq nazirin biznesi xeyli zəifləmişdi.

İndi isə yuxarıda da vurğuladığımız kimi Ələkbərov bir neçə istiqamətdə biznes həmlələrinə keçib və vaxtilə itirdiyi mövqeləri bərpa etmək üçün səylə çalışır.

***Sənan Mirzə***



# Azad edilmiş ərazilərdə yaşayan əhalinin sayı açıqlanıb

***"Ermənistanın işğalı nəticəsində tamamilə dağıdılmış Qarabağ 6 il əvvəl - Şanlı Zəfərdən sonra quruculuq və bərpa mərhələsinə qədəm qoydu. Keçən 6 il müddətdə işğaldan azad olunan ərazilərimiz Azərbaycan Prezidentinin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, ötən 6 ildə 75 mindən çox vətəndaşımız Qarabağda yaşayaraq işləməyə və təhsil almağa başlayıb:

"Həmin müddətdə sadəcə dövlət büdcəsindən işğaldan azad olunan ərazilərimizin bərpasına 22 milyard manatdan çox vəsait ayrılıb və bu il bu istiqamətə ən azı 3.5 milyard manat yönəldiləcək. Son 6 ildə Qarabağ və Şərqi Zəngəzurda 30 minə yaxın keçmiş məcburi köçkün daimi olaraq məskunlaşıb. Bu 7200-dən çox ailənin ev ilə təmin edilməsi deməkdir.

2026-cı ilin yanvarın 1-dən sonrakı, 2 aya yaxın müddətdə isə 3 mindən çox keçmiş məcburi köçkün işğaldan azad olunan ərazilərimizdə məskunlaşıb. Bu yalnız bu ilin ilk 2 ayında keçmiş məcburi köçkünlərimizin dövlət tərəfindən 700-dən çox evlə təmin edilməsi deməkdir. Yaxın illərdə 15 milyard manata yaxın yeni dəyər formalaşdırmaq potensialı olan Qarabağ Azərbaycan iqtisadiyyatının yeni inkişaf drayverinə çevrilməkdədir".

# DİN-dən Qarabağa səyahət etmək istəyənlərə xəbərdarlıq

***Qarabağa səyahət edən vətəndaşların oraya tez alışan maddələri aparması qadağandır.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Novruz və Ramazan bayramlarında Qarabağa səyahət edən vətəndaşlara müraciətində bildirilib.

Qeyd olunub ki, bayram günlərinin şən əhval-ruhiyyədə və əmin-amanlıq şəraitində keçməsi üçün polis əməkdaşları gücləndirilmiş iş rejimində xidmət aparır, təhlükəsizliyin təmin edilməsi məqsədilə bütün zəruri tədbirləri həyata keçirirlər:

"Vətəndaşlar isə məsuliyyətli davranışları ilə bu sabitliyi daha da möhkəmləndirə bilərlər. Qarabağa sərbəst və maneəsiz səfər etmək üçün əvvəlcədən müvafiq portalda qeydiyyatdan keçmək vacibdir. Şəxsi minik avtomobili ilə səfər edən şəxslər müəyyən olunmuş marşrutlardan kənara çıxmamalıdırlar. Bundan əlavə, əraziyə tez alışan və partlayıcı maddələrin aparılması qəti qadağandır. Vətəndaşlara yalnız istirahət üçün nəzərdə tutulmuş məkanlara üz tutmaları tövsiyə olunur".

# "BakuBus" gücləndirilmiş iş rejimində işləyəcək

***"BakuBus" MMC qarşıdan gələn Novruz bayramı günlərində bölgələrə səfər edən sərnişinlərin sayında gözlənilən artımı nəzərə alaraq, 20-30 mart tarixlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.***

"Unikal" xəbər verir ki, qeyd olunan tarixlərdə Bakıdan Gəncə, Mingəçevir, Bərdə, Tərtər, Sınıq Körpü və Zaqatala istiqamətlərinə fəaliyyət göstərən müntəzəm marşrut xətləri üzrə əlavə reyslər təşkil ediləcək. Sərnişindaşıma xidmətləri sərnişin sıxlığını tənzimləmək məqsədilə daha intensiv qrafik əsasında həyata keçiriləcək.

Bayram günlərində sərnişin axınının çox olacağını nəzərə alaraq, bölgələrə səfər etməyi planlaşdıran vətəndaşlara biletlərini əvvəlcədən onlayn qaydada əldə etmələri tövsiyə olunur.

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:05 PM Page 9





## Qaradağ RİH-də ciddi nöqsanlar aşkarlandı - 4 məmura xəbərdarlıq edildi

***Qaradağ Rayon İcra Hakimiyyətində rayonun qəsəbə nümayəndələrinin kommunal xidmət sahələri və aidiyyəti qurum rəhbərlərinin iştirakı ilə operativ müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, müşavirədə rayon ərazisində mövcud vəziyyət, o cümlədən təmizlik, abadlıq, tikinti və inzibati nəzarət sahələrindəki problemlər müzakirə olunub.

Toplantıda Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Anar Tağıyev və Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov iştirak ediblər. Çıxış edən Emil Abbasov rayonun bəzi qəsəbələrində mövcud olan nöqsanları diqqətə çatdıraraq, məsul şəxslərə ciddi xəbərdarlıqlar edib və qeyd olunan problemlərin ən qısa müddətdə aradan qaldırılmasının vacibliyini vurğulayıb.

Müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Anar Tağıyev bildirib ki, Qaradağ rayonunun bəzi ərazilərində nöqsanlar mövcuddur və bütün bunlar ümumi mənzərəyə xələl gətirir.

İclas zamanı rayon ərazisində keçirilən monitorinqlər zamanı aşkar edilmiş problemlər konkret faktlarla təqdim olunub. Mövcud çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilib, nəzarət mexanizmlərinin isə daha da gücləndiriləcəyi bildirilib.

Bundan əlavə rayon qəsəbələrində sanitar-təmizlik və qanunsuz tikililərlə bağlı məsələlər xüsusi müzakirə mövzusu olub və bu istiqamətdə ciddi tənqidlər səsləndirilib. Qeyd olunub ki, tikinti sahəsində qanunvericiliyin tələblərinə əməl olunmalı, özbaşına tikililərə qəti şəkildə son qoyulmalı və belə halların qarşısı operativ şəkildə alınmalıdır. Hər iki istiqamətdə nəzarətin daha da sərtləşdirilməsinin vacibliyi vurğulanıb.

Yol verilmiş nöqsanlara görə məsul şəxslər barədə də müvafiq tədbirlər görülüb. Belə ki, təmizlik sahəsindəki çatışmazlıqlara görə Lökbatan qəsəbəsi üzrə nümayəndəliyin baş məsləhətçisi Hikmət Lətifova və Ələt qəsəbəsi üzrə nümayəndə Altay Əliyevə xəbərdarlıq edilib. Qanunsuz tikililərlə bağlı nöqsanlara görə isə Qızıldaş qəsəbəsi üzrə nümayəndə Ruslan Əkbərova və Puta qəsəbəsi üzrə nümayəndə Ayaz Dünyamalıyevə ciddi xəbərdarlıqlar olunub.

Sonda tədbirlər planı qəbul edilib və verilən tapşırıqların icrasını nəzarətdə saxlanılması üçün məsul şəxslər təyin edilib. Öz növbələrində qəsəbə nümayəndələri nöqsanlarını qəbul edib, bu cür halların bir daha təkrarlanmayacağına və mövcud qüsurların tezliklə aradan qaldırılacağına dair söz veriblər.

## Saleh Səmədovun həbs müddəti uzadıldı

***İmişli Rayon Ağsaqqallar Şurasının keçmiş sədri Saleh Səmədovun həbs müddəti uzadılıb.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, bu barədə Səbail Rayon Məhkəməsində istintaq orqanı tərəfindən verilən vəsatətə baxılıb.

Məhkəmənin qərarı ilə Saleh Səmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb. Saleh Səmədov AR Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə ittiham olunur.

Qeyd edək ki, Saleh Səmədov Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib.

O, həmçinin ötən il mayın 13-də İmişli Rayon Ağsaqqallar Şurasının sədri vəzifəsindən azad edilib.

# Oliqarx-məmurların övladlarına milyonlarla manat "pul atanlar"...

## Yüksək vəzifəli şəxslərin uşaqlarının adı ətrafında qalmaqallar səngimək bilmir - Şok siyahı!

***Yola salmaq üzrə olduğumuz həftə məlumat yayıldı ki, "AzFinance İnvestisiya Şirkəti"nin direktoru, məşhur maliyyəçi İntiqam Səfərəliyev həbs edilib. Bildirilib ki, İntiqam Səfərəliyev xüsusilə külli miqdarda dələduzluqda ittiham olunur.***

Xəbəri daha maraqlı edən isə sözügedən işdə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun oğlu Tale Heydərovun adının hallanmasıdır. Yerli KİV yazır ki, ittihama görə, İ.Səfərəliyev T.Heydərova yalan vəd verərək onun 1 milyon manatdan çox pulunu ələ keçirib.

Məhz oğul Heydərovun şikayəti əsasında tanınmış şirkət rəhbəri barəsində həbs qətimkan tədbiri seçilib. Ona 178.4-cü (dələduzluq-xüsusilə külli miqdarda törədildikdə) maddəsi ilə yekun ittiham irəli sürülüb.

Səfərəliyev özünü təqsirli bilmir, o, ilkin ifadələrində zərərçəkmiş şəxsi aldatmadığını deyib.

Qeyd edək ki, İntiqam Səfərəliyev 2019-cu ildən "AzFinance İnvestisiya Şirkəti"nin direktoru işləyib. 15 ildən çox idarəçilik və pul vəsaitlərinin idarə edilməsi təcrübəsinə malik iş adamı Heydərovlara aid olduğu deyilən AFB Bankın Müşahidə Şurasının Üzvü və başqa vəzifələrdə də çalışıb.

Onu da deyək ki, Azərbaycanda yüksək vəzifəli şəxslərin ailə üzvlərinə külli miqdarda pul "atılması" ilə bağlı indiyədək çox sayda qalmaqallar baş verib. Məsələn, bir neçə il öncə Bakı şəhər sakini, 1977-ci il təvəllüdlü Yalçın Sabir oğlu Abdullayev ərizə ilə Nərimanov rayon Polis İdarəsinə müraciət edərək bildirib ki, 2015-ci ilin yanvar ayında Qazax rayon sakini, 1986-cı il təvəllüdlü Xəyyam Nazim oğlu Balayev onun etibarından sui-istifadə edərək 965 000 ABŞ dollarını alaraq qaytarmayıb.

İstintaq orqanı tərəfindən Xəyyam Balayevin barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq törətmək) maddəsi ilə ittiham elan edilib.

Xatırladaq ki, Y.Abdullayev Beyləqan Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Vaqif Abdullayevin qardaşı oğludur.

Zərdab rayonunun keçmiş icra başçısı Lütvəli Babayevin oğlu Babaəli Babazadə isə Aruz Əliyev adlı dostunun üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata satıb pulunu mənimsəməkdə günahlandırıb. İddialara görə, bu hadisə baş verməzdən əvvəl isə Babaəli Babazadənin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənməli olduğu xatırladılıb. Məsələ ilə bağlı Babaəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub. İddia olunur ki, Aruz Əliyev külli miqdarda vergi borcu yaranmış Babaəli Babazadəyə ölkədən çıxmağı məsləhət bilib. O, tanışı Ehtiram Kərimovla əlbir şəkildə eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasını təşkil ediblər. Babaəli Babazadə Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruz Əliyevə etibarnamə verib, əmlaklar satışa çıxarılıb. Onun dediyinə görə, Aruz Əliyev onun etibarından sui-istifadə edib. Aruz Əliyev və Ehtiram Kərimov Babaəli Babazadənin əmlakını ümumilikdə 2 milyon manata satıblar, pulu sahibinə vermədən şəxsi mənafeləri üçün sərf ediblər. Hazırda həbsdə olan Əliyev və Kərimov bu iddiaları rədd edir, sözügedən pulu sabiq icra başçısının oğlunun sağda-solda xərcləyib işin üstü açılınca isə atasının qəzəbindən qorunmaq üçün onları şərlədiyini deyir.

Bir neçə il əvvəl "Zaminbank" ASC-də xəzinədar işləyən Eldar Salmasi isə bir neçə şəxsdən ucuz qiymətə dollar satmaq adı ilə 1 milyon manata yaxın pul alaraq qaytarmamaqda təqsirləndirilib. Məhkəmədə ifadə verən E.Salmasi özünü təqsirli bilməyib və pulu borc üçün aldığını deyib. İş üzrə zərərçəkmiş şəxs qismində tanınanlardan biri isə kənd təsərrüfatı nazirinin o vaxtkı müavini İlham Quliyevin oğlu Ərdəbil Quliyev olub. Ona qarşı 150 min manat məbləğində dələduzluq edilib.



2018-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində o vaxt deputat, sonradan isə Azərbaycanın Ukraynada səfiri olan Elmira Axundovanın oğlu Həbib Axundova və digər şəxslərə pul "atmaqda" təqsirləndirilən Elnur İbrahimov barədə xəbər yayılıb. Bildirilib ki, ittihama görə, E.İbrahimov zərərçəkmişlər - Elvin Vəliyev, Fərman Məmmədov və digər şəxslərdən biznes qurmaq adı ilə təxminən 1 milyon manat alaraq dələduzluq yolu ilə mənimsəyib. Həmin vaxt sabiq deputatın oğlu H. Axundov da zərərçəkmiş qismində tanınıb. E.İbrahimov onun 100 min manat pulunu ələ keçirməkdə təqsirləndirilib. Mətbuatda yazılan məlumata görə, E.İbrahimovla deputatın oğlu H.Axundov dost olub. İstintaq zamanı E.İbrahimov ölkədən qaçıb, daha sonra Rusiyada həbs edilib. Zərərçəkmişlərin bir neçəsi pulu E.İbrahimova deyil, H.Axundova verdiklərini bildiriblər.

Qeyd edək ki, sizə təqdim etdiyimiz siyahı tam deyil və onu daha da uzatmaq olardı. Elə sadalanan faktlardan da aydın göründüyü kimi, Azərbaycanda məmur övladlarına qarşı dələduzluq iddiaları mütəmadi gündəmə gəlir. Və həmin iddialar hər dəfə gündəmə gəldikdə isə cəmiyyəti bir sual daha çox düşündürür: "Ortada həqiqətən dələduzluq var, ya yox, ayrı məsələdir, əsas odur ki, məmur balalarında o qədər pul hardandır? Aidiyyatı qurumlar dələduzluq iddiasını araşdırarkən, bəlkə, bu suala da aydınlıq gətirsinlər?"...

***Toğrul Əliyev***

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:05 PM Page 10



# Məşhur özəl klinikalarda ağlasığmaz özbaşınalıqlar

## Qanunsuzluğun pik həddi: tibbi təhsili olmayanları belə həkim kimi çalışdırmaqdan çəkinmirlər!

***Son günlər Azərbaycanda fəaliyyət göstərən məşhur özəl klinikalarda ard-arda ciddi qanunsuzluqlar ortaya çıxıb. Fəaliyyəti Səhiyyə Nazirliyinin davamlı nəzarəti altında olduğu deyilsə də, görünən odur ki, sözügedən tibb müəssisələri hələ də öz bildikləri kimi davranmağa davam edir. Onların bu cəsarəti haradan, yaxud kimdən aldığı bəlli deyil, fakt odur ki, özəl klinikaların bir çoxu minlərlə manat cətriməni belə gözə alaraq ağlasığmaz özbaşınalıqlara qol qoymaqdan çəkinmirlər.***

Məsələn, yola salmaq üzrə olduğumuz həftə Səhiyyə Nazirliyi tərəfindən Bakının Binəqədi rayonunda fəaliyyət göstərən ”Verteba” klinikasında yoxlama keçirilib. “Teleqraf”ın əldə etdiyi məlumata görə, keçirilən yoxlama zamanı sertifikatsız, orta ixtisas tibb təhsili olmadan ”fizioterapevtik” işi üzrə masaj prosedurlarının həyata keçirilməsi aşkar edilib.

Həmin fəaliyyət Səadət Nəsibova, Urqaya Rzayeva və Pəri Nərimanova tərəfindən həyata keçirilib.

Nəticədə nazirlik tərəfindən klinika barədə İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi üzrə protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarına əsasən, ”Verteba” klinikası 6000 manat cərimələnib.

Qeyd edək ki, ”Vertebra” Onurğa Tibb Mərkəzinin baş həkimi İradə Hacıyevadır. Holdinqin rəhbəri isə İlqar Əliyevdir.

Binəqədi rayonu, Binəqədi qəsəbəsi, Suleyman Sani Axundov küçəsi 20 c ünvanında yerləşən ”İstanbul” klinikası əmək hüquqlarını pozduğuna görə külli miqdarda cərimələnib. “Qaynarinfo”nun məlumatına görə, ”İstanbul” Klinikası MMC tərəfindən işçinin əmək hüquqlarının pozulması faktı ilə bağlı Binəqədi rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) O.Q. adlı həkimin müvafiq işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib. Klinika rəhbərliyi barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə protokol tərtib olunub və işə məhkəmədə baxılıb.

Məhkəmənin hökmü ilə ”İstanbul” klinikası 20.000 manat cəriməe edilib. Klinika rəhbərliyi qərardan apellyasiya şikayəti versə də, təmin olunmayıb.

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasəm, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslər hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər 1000-2000 manatadək, vəzifəli şəxslər 3000-5000 manatadək, hüquqi şəxslər 20000 - 25000 manatadək məbləğdə cərimə edilir.

Martın əvvəllərində isə əmək qanunvericiliyinin tələblərinin pozulmasına görə ”Est. Etik Clinix and Spa Center” MMC cərimələnib. Yerli KİV-in məlumatına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi (əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işə cəlb edilməsi) ilə protokol tərtib edilib. İşə Nərimanov Rayon Məhkəməsində baxılıb.

Məhkəmənin qərarı ilə ”Est. Etik Clinix and Spa Center” MMC-nin rəhbəri sözügedən maddə üzrə inzibati xətanı törətməkdə təqsirli bilinərək 20 000 manat məbləğində cərimə olunub.

Qərardan narazı qalan MMC-nin nümayəndəsi apellyasiya şikayəti verib. Şikayətə Bakı Apellyasiya Məhkəməsində baxılıb.

Məhkəmə iclasında şirkət rəhbəri bildirib ki, MMC-nin ümumi dövriyyəsi və gəlirləri 20 000 manat təşkil etmir və bu məbləğdə cərimənin ödənilməsi mümkün deyil. Onun sözlərinə görə, cərimənin tətbiqi şirkətin ləğvinə və ya müflis olmasına səbəb ola bilər.

Lakin Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etməyib və birinci instansiya məhkəməsinin qərarını dəyişdirilmədən qüvvədə saxlayıb.

Təxminən bir ay öncə isə Bakıda estetik əməliyyat etdirən 43 yaşlı qadın dünyasını dəyişmişdi. Hadisə Binəqədi rayonunda qeydə alınmışdı. Belə ki, ”Medi Hall” tibb müəssisəsində bədənşəkilləndirmə əməliyyatı edilən 1983-cü il təvəllüdlü Nigar İsmayılovanın qəfil halı pisləşmiş, ona tibbi müdaxilə göstərilməsinə baxmayaraq, həyatını xilas etmək mümkün olmamışdı. Müəyyən edilmişdi ki, ”Medi Hall” hospitalının baş həkimi, adı daha əvvəl də bir sıra uğursuz estetik əməliyyatlarda hallanan Nigar Məhəmmədovadır. Sözügedən həkim əvvəllər ”MedAura” klinikasında fəaliyyət göstərib və həmin dövrdə pasiyentlərin çoxsaylı şikayətləri ilə üzləşib. Hadisə ilə bağlı Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən bildirilmişdi ki, ”Medi Hall” tibb müəssisəsi ilə bağlı səlahiyyətlərinə aid olan bütün məsələlər ciddi şəkildə araşdırılır. Bundan başqa, hazırda faktla bağlı Binəqədi Rayon Prokurorluğunda araşdırma aparılır. Hadisənin səbəbi tam, hərtərəfli və obyektiv araşdırıldıqdan sonra müvafiq qərar qəbul ediləcək.

Göründüyü kimi, ölkənin məşhur özəl klinikalarının belə başı qalmaqallardan, ciddi nöqsanlardan, hətta tibbi təhsili olmayanların həkim kimi işlədilməsinə qədər uzanan özbaşınalıqlardan açılmır. Üstəlik, o da aydın görünür ki, müəyyən yüksək vəzifəlilərin, nüfuzlu şəxslərin himayəsinə sığınan bu cür tibb müəssisələrini sadəcə cərimələrlə qanunsuzluqlardan çəkinməyə məcbur etmək mümkün olmayacaq və daha sərt cəza tədbirlərinə əl atılması qaçılmazdır.



***Toğrul Əliyev***

# Səhiyyə Nazirliyi bayram günləri ilə bağlı əhaliyə müraciət etdi



***Səhiyyə Nazirliyi bayram günləri ilə əlaqədar əhaliyə müraciət edib.***

“Unikal” xəbər verir ki, müraciətdə əhalinin diqqətinə çatdırılıb ki, yaz mövsümünün gəlişi ilə əlaqədar havaların qeyri-sabit keçməsi fonunda respirator xəstəliklərin, eləcə də mövsümi qrip hallarının artması müşahidə oluna bilər.

“Bu il Novruz və Ramazan bayramlarının eyni dövrə təsadüf etməsi səbəbindən qarşıdakı həftələrdə bayram şənliklərinin və müxtəlif kütləvi tədbirlərin keçirilməsi gözlənilir.

Ölkə əhalisinin sağlamlığının qorunması, yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi qarşıdan gələn bayram və istirahət günlərində vətəndaşlara kütləvi tədbirlərdə və insanların sıx toplaşdığı məkanlarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyi, əl gigiyenasına riayət etməyi, qida qəbuluna diqqət yetirməyi və gündəlik qidalanma rejiminə vitaminlərlə zəngin məhsullar daxil etməyi tövsiyə edir.

Eyni zamanda yaz mövsümündə havaların dəyişkən keçməsini nəzərə alaraq, üst geyimlərinin hava şəraitinə uyğun seçilməsi məsləhət görülür.

Hər bir vətəndaş öz sağlamlığına xüsusi diqqət və məsuliyyətlə yanaşmalı, həm özünü, həm də ətrafındakı insanları qorumalıdır”, - müraciətdə qeyd olunub.

# Həcc üçün qeydiyyat yenə uzadıldı



***Həcc ziyarəti üçün kvotanın 90 faizindən çoxu tamamlanıb.***

Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr şöbəsinin müdiri, Həcc elektron sistem rəhbəri Vüsal Cahangiri məlumat verib. Bildirilib ki, sənəd qəbulu QMİ tərəfindən bayramdan sonra da davam etdiriləcək.

Qeyd edilib ki, Həcc niyyətli olan vətəndaşlarımızdan yubanmadan gəlib qeydiyyata alınmaqları xahiş edilir.

Bütün ölkələrdə müşahidə edilən qiymət artımları, habelə, Səudiyyə Ərəbistanı Krallığının müvafiq qurumları tərəfindən yeni xidmətlərin təqdim edilməsi ilə əlaqədar olaraq QMİ 2026-cı il Həcc mövsümündə bir nəfər üçün ziyarət paketinin qiymətini 6100 ABŞ dolları (10 370 manat) müəyyən edib.

Ziyarət vahid formada təşkil olunacaq və hava nəqliyyatı ilə həyata keçiriləcək.

Tələb olunan sənədlər:

1) Ümumvətəndaş pasportu (ən azı 1 il vaxtı olmalıdır);

2) Şəxsiyyət vəsiqəsinin surəti;

3) 5 sm ? 5 sm ölçüdə 2 ədəd ağ fonda çəkilmiş rəngli fotoşəkil (qadınlar tünd hicabda);

4) Sağlamlıq haqqında arayış.

Məlumat üçün bildirək ki, Həcc ziyarətinə getmək istəyənlərin sənəd qəbulu 22 oktyabr 2025-ci il tarixindən etibarən başlayıb.

# Ucarda əməliyyat - Saxlanılanlar var

***Ucar Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən 33 yaşlı Rövşən Mustafayev və 31 yaşlı Mahir Namazov saxlanılıblar.***

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan ”Unikal”a verilən məlumata görə, həmin şəxslərdən 3 kiloqram marixuana və 1 kiloqram tiryək aşkarlanıb.

Araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxslər narkotik vasitələri Bakı şəhərinə aparmaq və müxtəlif ünvanlara yerləşdirmək məqsədilə əldə ediblər.

Faktla bağlı cinayət işi başlanılıb, R.Mustafayev və M.Namazov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.




## "Sədərək"in sahibinə qarşı yarım milyonluq dələduzluq - İş adamı həbs edildi

***"Sədərək" Ticarət Mərkəzinin sahibi Yusif Qədimbəylini aldadan iş adamı həbs edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, 41 yaşlı Elnur Səmədov külli miqdarda dələduzluqda təqsirli bilinib.

Bu iş üzrə bir neçə zərərçəkmiş var, E.Səmədovun aldatdığı şəxslərdən biri də Yusif Qədimbəylidir. Təqsirləndirilən şəxs Qədimbəyliyə Azərbaycanın müxtəlif rayonlarında yetişən mövsümi meyvələrin alınıb Rusiyada satılması və əldə olunacaq gəlirin bölünməsinə dair yalan vəd verib.

Qədimbəyli isə təklifi cəlbedici sayaraq ona 489 min manat pul verib. Elnurun pulu alıb iş görə bilməməsindən sonra isə Y.Qədimbəyli ondan şikayət edib.

İstintaq vaxtı cinayət işi üzrə başqa zərərçəkmişlər də müəyyən edilib. O, Qədimbəylidən başqa yalan vədlə ayrı-ayrı şəxslərdən ümumilikdə 723 min manat pul alıb.

E.Səmədov uzun illər müxtəlif formada biznes fəaliyyəti ilə məşğul olub. Zərərçəkmiş şəxsləri də bir-birinin vasitəsilə tanıyıb. O, məhkəmədə özünü təqsirli bilsə də, bəzi epizodlarla razılaşmayıb.

Verilmiş ittiham məhkəmə araşdırması ilə təsdiqini tapıb. Hökmə əsasən, Elnur Səmədova 8 il 6 ay həbs cəzası verilib. Həmçinin Yusif Qədimbəyli və digər zərərçəkmişlərin dəymiş ziyanın ödənilməsi ilə bağlı mülki iddiaları təmin edilib.

## Azad olunmuş ərazilərdəki qəbiristanlıqlarda mina riski davam edir

***İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi hələ də mövcuddur.***

"Unikal" xəbər verir ki, bu məsələ ilə bağlı Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) əhaliyə müraciət edib.

Bildirilib ki, ANAMA-ya işğaldan azad edilmiş ərazilərdə yerləşən qəbiristanlıqlara Novruz Bayramı günlərində vətəndaş ziyarəti ilə bağlı çoxsaylı müraciətlər daxil olur:

"Vətəndaşlarımızın doğma torpaqlara və əzizlərinin məzarlarına baş çəkmək istəyini anlayışla qarşılayırıq. Lakin unutmayaq ki, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi hələ də mövcuddur. Qeyd edək ki, bir çox qəbiristanlıqlar minalanmış ərazilərdə yerləşir və bu kimi ərazilərdə mina hadisələri də baş verib. Bu səbəbdən hər kəsi səbirli olmağa və müvafiq dövlət qurumlarının müəyyən etdiyi qaydalara əməl etməyə, bələd olmadığınız ərazilərə daxil olmamağa çağırırıq".

## 80 yaşlı kişi Mərkəzi Poçt binasında öldü

***Mingəçevirdə yaşlı kişi dünyasını dəyişib.***

"Unikal"ın məlumatına görə, hadisə Mərkəzi Poçt binasında baş verib. 1946-cı il təvəllüdlü şəhər sakini Rafayel Qubadzadə gəldiyi poçtda qəfildən ölüb.

İlkin müayinə zamanı onun ürəktutmasından öldüyü məlum olub.

Faktla bağlı araşdırma aparılır.

***Ehtiram Muradov***

# Monopolistlərin burnumuzdan gətirdiyi bayram...

## Onsuz da yüksək olan ərzaq qiymətləri Novruz bayramı ərəfəsində daha da bahalaşıb

***Azərbaycanda builki Novruz bayramı ərəfəsində ənənəvi şirniyyatların qiymətlərində göz-görəti artım var. Novruzun simvollarından sayılan şəkərbura və paxlava indi əvvəlki illərdən xeyli baha başa gəlir.***

"Unikal"ın araşdırması zamanı məlum olub ki, hazırda satışda şəkərburanın qiyməti 1.80-2 manat, paxlavanın qiyməti isə 2.50-3 manat arasında dəyişir. Əməkdaşımızla söhbətində şirniyyat satıcılarından biri ötən il həmin məbləğin müvafiq olaraq 1.30-1.50 və 1.70-2 manat arasında dəyişdiyini vurğulayıblar.

Bundan başqa, bayramqabağı ətin də qiymətində bahalaşma qeydə alınıb. Bakının müxtəlif yerlərində bir müddət öncə 16-17 manata təklif olunan dana əti son günlərdə 18 manata satılmağa başlanıb. Qəssablar bildirirlər ki, qiymətin artması onların satışlarına mənfi təsir göstərir. Onlar qiymətin qalxmasına səbəb olaraq rayonlardan heyvanları baha qiymətə aldıqlarını söyləyirlər.

Novruz bayramında tələbatın artdığı çərəzlərin qiymətindəki kəskin artım isə hələ fevraldan başlayıb. Bir müddət "Milli.az" satıcılara istinadən yazıb ki, əvvəllər 17 manata satılan fındıq hazırda 27-28 manatdır: "Sarı kişmişin qiyməti 9 manat, qara kişmiş isə 8 manat, qabıqlı fındıq keçən il 7 manat idisə, bu il 12 manat, Ordubad cəvizi isə 13 manatdır. Fındıqda bu il bir az qıtlıqdır deyə bahalaşma var".

Bahalaşma yumurtanın da qiymətində müşahidə edilir. Hətta kənd yumurtası adı ilə satılan yumurtaların qiyməti bir ədəd üçün 40-45, bəzi yerlərdə 50 qəpiyədək yüksəlib.

İqtisadçı millət vəkili Əli Məsimli bayramqabağı bahalaşmaya səssiz qalmayıb. "İndi dükan-bazarlarda qiymətlər əhalinin xeyli hssəsinin gəlirləri ilə müqayisədə o qədər yüksəkdir ki, belə bahalıq əhalinin aztəminatlı təbqələrinin normal bayram süfrəsi açmasını mümkünsüz edir" - Məsimli vurğulayıb.

"Rəsmi statistikaya görə, Azərbaycanda əhalinin gəlirlərinin yarıya qədəri ərzaq məhsullarının alınmasına xərclənir. Bu, birbaşa həyat səviyyəsinin və xərclər strukturunun göstəricisidir. Əslində, əhalinin xeyli hissəsinin, xüsusən də aztəminatlı təbəqəsinin gəlirlərinin daha çox hissəsi ərzağa sərf olunur. Belə bir şəraitdə bayramqabağı qiymətlərin artması əhalinin xeyli hissəsinə əlavə maliyyə yükü yaradır. Bəzən bayramqabağı qiymətlərin artırılması bazar iqtisadiyyatının qanunauyğunluğu kimi göstərilir və hesab edirlər ki, belə də olmalıdır. Bəli, tələb-təklif qanununa görə, tələb təklifi üstələyəndə, qiymətlər artır, təklif tələbdən çox olanda isə qiymətlər aşağı düşür. Bu, iqtisadiyyata aid bütün dərsliklərdən məlum olan sadə bir həqiqətdir. Amma bununla bağlı elə nüanslar da var ki, onları da nəzərə əlmaq faydalı olar. Belə ki, bazar iqtisadiyyatının nümunəvi ölkələri də daxil olmaqla, bir sıra ölkələrdə bayramqabağı qiymət endirimlərinin edilməsi artıq ənənə halını alıb. Belə ölkələrdə bayramqabağı qiymət endirimləri edən malsatanlar bundan uduzmurlar, əksinə daha çox müştəri qazanıb daha çox mal satır və dövriyyəni genişləndirməklə daha çox qazanırlar" deyən millət vəkili əlavə edib: "Məsələn, hansısa mal və məhsulun bir vahidini 1 manata satan - dövriyyədən 100 manat qazanırsa, malın qiymtinin 70-80 qəpiyə endirəndə, artan tələb şəraitində 200 vahid satıb 140-160 manat qazana bilirlər. Bunun fonunda qiyməti qaldıranlar isə mallarını əvvəlki qədər sata bilmir və uğursuz vəziyyətə düşürlər. Bizdə isə bayramqabağı bayram süfrəsi üçün zəruri olan mal və məhsullara tələbat artdığından, dövriyyədən daha çox qazanmağa yox, qiymətləri artırıb, fürsətdən yararlanmağa üstünlük verilir. Belə şəraitdə əhalinin aztəminatlı təbəqəsi normal bayram süfrəsi aça bilmir. Bununla belə bizdə də bayramqabağı endirimlər də edilir. Onun bir hissəsi həqiqətən real endirimdir və bu sahədə dürüst yol tutanların fəaliyyəti təqdirəlayiqdir. Amma endirimlərin xeyli hissəsi manipulyasiya xarakteri daşıyır. Məsələn, dəyəri heç 20 manat olmayan mala 50 manat qiymət qoyub sonra da ŞOK endirim elan edib, onu 35-40 manata satmaq, endirim yox, alıcıları aldatmaqdır.



Qaldırdığımız bu məsələ, yəni bayramqabağı qiymət artımından yox, dövriyyədən qazanmaq alıcıya da, satıcıya da daha sərfəlidir. Ona görə də bu məsələni daim gündəmdə saxlamaqla bizdə də bayramqabağı həqiqi qiymət endirimlərinin ənənə xarakteri almasına nail olmaq lazımdır ki, bundan həm malsatanlar qazansın, həm də qiymətlər əhalinin aztəminatlı təbəqəsi üçün də əlçatan olsun və onların da bayram süfrəsi açması imkanları genişlənsin".

Bəzi ekspertlər bayramqabağı bahalaşmanın süni xarakter daşıdığını və bunun kökündə əsasən monopolist maraqlarının dayandığını vurğulayırlar. Rəqabət Məcəlləsinin qəbul olunması, inhisarçılıqla mübarizə baxımından daha səlahiyyətli qurumun yaradılması da, deyəsən, monopolistlərin "özlərini yığışdırması" üçün hələ kifayət etməyib. İl uzunu aramsız davam edən qiymət artımı azmış kimi onlar bayramları da bahalaşma üçün fürsətə çevirirlər. Özü də hər il bir az da amansızcasına! Bu soyğunçuluğa nə vaxt son qoyulacağını isə kimsə bilmir...

***Toğrul Əliyev***

**5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

"Unikal"qəzetinin əməkdaşı bu mövzuda Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qəsəbova ilə söhbətləşib.

İlhamə Qəsəbova deyir ki, Novruz adətləri əsrlərin süzgəcindən keçib gəlib. O, bildirib ki, Novruz adət-ənənələrini bizim böyüklərimiz yaşadıb. Müsahibimizin sözlərinə görə, əgər ailə bayram adət-ənənəsini yaşadırsa, uşaqlar da bunu qoruyacaq.

# Novruz ənənələrini müasir dövrdə necə qorumalıyıq?

## İlhamə Qəsəbova: "Novruz ənənələri ailələrdə yaşadılmalıdır ki, gələcək nəsilə ötürülsün"

***Novruz bayramı Azərbaycan xalqının ən qədim və ən sevilən bayramlarından biridir. Bu bayram yazın gəlişini, təbiətin oyanışını və yeni ilin başlanğıcını simvolizə edir. Novruz adət-ənənələrlə çox zəngin bir bayramdır və bu ənənələr nəsildən-nəslə ötürülərək bu günə qədər qorunub saxlanılır. Ancaq müasir dövrdə də bu adət-ənənələrin qorunub saxlanılması elə də asan deyil. Azərbaycan xalqının milli kimliyinin və mədəni irsinin yaşadılması baxımından böyük əhəmiyyət daşıyan Novruz adətləri hər zaman təbliğ və icra edilməlidir.***



Bu adət-ənənələrdən biri də Novruz çərşənbələridir. Novruz ərəfəsində qeyd olunan çərşənbələr bu bayramın əsas mərasimlərindən hesab olunur. Su, Od, Yel və Torpaq çərşənbələri xalq arasında xüsusi qeyd edilir. İnsanlar bu günlərdə evlərini təmizləyir, həyətlərini səliqəyə salır, müxtəlif şirniyyatlar hazırlayır və bayrama hazırlaşırlar. Səməni yetişdirmək, tonqal qalamaq, yumurta boyamaq və qapı pusmaq kimi adətlər də Novruzun ayrılmaz hissəsidir.

Müasir dövrdə texnologiyanın və şəhər həyatının inkişafına baxmayaraq, Novruz ənənələri hələ də geniş şəkildə yaşadılır. Ailələr bir araya gələrək bayram süfrəsi açır, qohum və qonşular bir-birini ziyarət edir, uşaqlar tonqal ətrafında sevinclə oynayırlar. Televiziya proqramları, məktəblərdə keçirilən tədbirlər və dövlət səviyyəsində təşkil olunan şənliklər də bu ənənələrin yaşadılmasına kömək edir.

Bundan əlavə, Novruz bayramının UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi bu ənənələrin qorunması və dünyaya tanıdılması baxımından mühüm rol oynayır. Bu cür addımlar Novruzun yalnız Azərbaycanda deyil, beynəlxalq səviyyədə də tanınmasına və gələcək nəsillərə ötürülməsinə şərait yaradır.

Nəticə etibarilə, Novruz bayramının adət-ənənələri müasir dövrdə də xalq tərəfindən böyük sevgi və ehtiramla qorunub saxlanılır. Bu ənənələrin yaşadılması milli dəyərlərin və mədəni irsin gələcək nəsillərə ötürülməsi üçün mühüm əhəmiyyət daşıyır.

Novruz bayramına hazırlıq dörd çərşənbə ilə başlayır. Bu çərşənbələr Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır. Hər çərşənbə təbiətin bir ünsürünü təmsil edir və xalq inanclarına görə, bu günlərdə təbiət tədricən oyanmağa başlayır.

Su çərşənbəsində insanlar su ilə bağlı müxtəlif mərasimlər keçirir, səhər tezdən axar suyun üzərindən tullanır və ya su ilə yuyunurlar. Bu, təmizlənmə və yenilənmə rəmzi hesab olunur.

Od çərşənbəsində tonqallar qalamaq ən məşhur adətlərdəndir. İnsanlar tonqalın üzərindən tullanaraq "ağırlığım-uğurluğum odda qalsın" deyirlər. Bu mərasim insanların pisliklərdən və mənfi enerjidən uzaqlaşmasını simvolizə edir.

Yel çərşənbəsi küləyin oyanmasını ifadə edir. Xalq inanclarına görə, bu gün külək təbiəti hərəkətə gətirir, ağacların tumurcuqlanmasına və baharın yaxınlaşmasından xəbər verir. İnsanlar bu günü də müxtəlif şənliklərlə qeyd edirlər.

Torpaq çərşənbəsi isə sonuncu və ən əlamətdar çərşənbədir. Bu gün torpağın oyandığına və həyatın yenidən başladığına inanılır. İnsanlar səməni yetişdirir, evlərini təmizləyir, bayram süfrəsi hazırlayır və Novruza son hazırlıqları görürlər.

Müasir dövrdə də çərşənbələrin qeyd olunması geniş şəkildə davam edir. Ailələr tonqal qalayır, uşaqlar şənliklərdə iştirak edir, məktəblərdə və müxtəlif mədəniyyət müəssisələrində tədbirlər təşkil olunur. Bu ənənələrin yaşadılması xalqın milli dəyərlərinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verir.

Bəs görəsən indiyədək Novruz adətlərindən hansı unudulub?

"Ailələrdə Novruz hazırlığı hələ çərşənbələrdən başlanır. Novruz ərəfəsi təkcə evlər təmizlənib arınmır. İnsanlar doğmalarının məzar yerini belə ziyarət edib təmizləyirlər. Xalqın yaşatdığı bu adətlər gələcəyimizin qarantıdır. Çərşənbələrdə bayram şirniyyatlarının evdə bişirilməsi, böyüklərin ziyarət edilməsi bayramın əsas adətlərindəndir. Bununla belə, Novruz adətlərindən bəziləri unudulur. Məsələn, Su çərşənbəsində evlərə xam su çilənməlidir. Bulaqdan başlanğıc suyunu götürüb evlərə gətirib çilənilməlidir. Bu adət Qarabağda "çiləmə" adlanır.

Evə gələn təzə gəlinləri su gətirməyə gətirirdilər. Amma bu adətlər təəssüf ki, unudulur. İkinci Od çərşənbəsində tonqal qalamaqla yanaşı, xəmir yoğurub sacda çörək bişirirdilər. Amma bu adət də artıq icra edilmir. Bayramda süfrə mədəniyyətini də dəyişmişik. Novruzda mütləq süfrəyə qoz- fındıq qoyulmalıdır ki, həyatın çətinliyini, sərtliyini keçmək asan olsun. Novruzda xonçalar bəzədilib üzərinə şam qoyulmalıdır ki, evin çırağı yanar olsun. Bu həm də xeyirin şər üzərində qələbəsini simvolizə edir. Səməni bayram süfrəsində mütləq olmalıdır. Bu xeyiri, bərəkəti simvolizə edir. Novruz süfrəsi bayrama uyğun bəzədilməlidir. Təbii boyalarla bayram yumurtaları boyanmalıdır. Yumurta həyatın başlanğıcı deməkdir. Ailələrdə bayram şirniyyatları bişirilməlidir ki, evdən həmin şirniyyatların ətri gəlsin. Təəssüf ki, bəzi ailələr artıq bayram xonçasını bəzəmək üçün şəkərbura, paxlava və qoğalı sifarişlə bişirtdirir. Çalışmalıyıq ki, bu ənənələr ailələrdə yaşadılsın. Belə olarsa Novruzun heç bir ənənəsi unudulmaz".

Qeyd edək ki, Novruz xonçası bayramın ən vacib və rəmzi elementlərindən biridir. Xonça adətən gözəl bir nimçədə hazırlanır və baharın gəlişini, bolluq və bərəkəti simvolizə edən nemətlərlə bəzədilir.

Səməni xonçanın əsas hissəsidir və təbiətin oyanmasını, bolluq və bərəkəti simvolizə edir. Şamlar ailə üzvlərinin sayına görə qoyulur və işığı, xoşbəxtliyi ifadə edir.Boyanmış yumurtalar həyatın və yeniliyin rəmzidir. Novruz xonçası bayramın sevincini, birlik və bərəkət arzusunu ifadə edir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Cəbrayılın Horovlu kəndində Novruz festivalı keçirilib

***Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşəbbüsü, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti və "Aqrar tədarük və təchizat" ASC-nin birgə təşkilatçılığı ilə ərsəyə gələn festival çərçivəsində Horovlu kənd bazarının açılışı baş tutub, kənd təsərrüfatı məhsulları və əl işlərinin yarmarkası təşkil olunub.***



Müxtəlif bölgələrdən fermer və investorlar üçün satış imkanı yaradılıb.

"Unikal" xəbər verir ki, festival çərçivəsində Novruz bayramının personajları olan Bahar qızı, Kosa və Keçəlin təqdimatında məzəli oyunlar, ənənəvi tamaşalar, həmçinin musiqiçilər, xanəndələr, aşıqlar, xor kollektivi, rəqqaslar və incəsənət xadimlərinin ifasında əyləncəli konsert proqramı təşkil olunub. Uşaqlar üçün xüsusi zonada kukla teatr tamaşası göstərilib, interaktiv fləşmoblar, viktorinalar keçirilib, hədiyyələr paylanılıb.



Sakinlər Novruz bayramının əsas simvolu kimi hazırladıqları kreativ səmənilərlə müsabiqəyə qatılaraq birincilik uğrunda mübarizə aparıblar. İctimai xadimlərdən ibarət münsiflər heyəti kreativlik, estetiklik və digər kateqoriya üzrə qalibləri müəyyən ediblər. Müxtəlif nominasiyalarda qalib gələn iştirakçılara hədiyyələr təqdim olunub. Ustad aşpazların iştirakı ilə səməni halvasının hazırlanması üzrə master-klass olduqca maraqla qarşılanıb. Horovlu kənd parkında təşkil edilən festivalda qonaqlar sacda hazırlanan lavaş, fəsəli, kətə, həmçinin bölgənin endemik bitkisi sayılan çirişotu kətəsinin dadına baxıblar.



Kəndirbazlar, pəhlivanlar, yumurta boyayayanlar və digərlərinin iştirakı ilə baş tutan Novruz festivalı sonda bayram tonqalı ətrafında birlik rəmzi olan Yallı rəqsi ilə başa çatıb.

# Milli Kitabxanada Novruz bayramı münasibətilə sərgi keçirilib



***19 mart 2026-cı il tarixində Milli Kitabxanada dostluq, mehribanlıq, mərhəmət, mədəniyyət bayramı sayılan, xalqın qəhrəmanlığını, rəşadətini nümayiş etdirən Novruz bayramı münasibətilə "Azərbaycan xalq bayramı - Novruz" başlıqlı geniş ənənəvi kitab sərgisi, "Novruz - Xalqımızın əziz bayramı" adlı virtual sərgi və "Novruz bayramı" adlı elektron məlumat bazası istifadəçilərə təqdim edilib.***

Ənənəvi sərgidə xalqımızın əziz bayramı haqqında - Novruz bayramı, tarixi, bayramla bağlı adət-ənənələr, inanclar, ayin-mərasimlər, oyun-tamaşalar, xalqımızın minilliklər boyu təcrübə əsasında formalaşmış iqtisadi həyatı, el sənətinin inkişaf yolları, şifahi xalq ədəbiyyatı və s. Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, fotolar nümayiş olunur.

Virtual sərgidə (https://anl.az/el/vsb/Novruz/index.htm) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki, bütöv Azərbaycanda alovlanan Novruz tonqalları, Qarabağ ellərində Novruz şənlikləri, Azərbaycan xalqının milli bayramı haqqında dövri mətbuatda çap olunan məqalələr, fotolar, Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, nümayiş olunur.

Elektron məlumat bazasında (https://anl.az/el/emb/Novruz/index.html) "Novruz bayramı", "Novruz beynəlxalq bayramı", "Novruz adətləri", "Çərşənbələr", "Oyunlar", "Novruz deyimləri", "Novruz falları", "Novruz haqqında nəşrlər", "Videoqalereya", "Fotoqalereya" bölmələrində tammətnli resurslar onlayn istifadəçilərə təqdim edilir.

Novruz Bayramı Azərbaycan xalqının ən qədim və sevilən bayramlarından biridir. Bu bayram yazın gəlişini, təbiətin oyanışını və yeni ilin başlanmasını simvolizə edir. Novruz bayramının kökləri minilliklər əvvələ, qədim Şərq xalqlarının inanclarına gedib çıxır. Bu bayram sülh, dostluq, birlik və yenilənmə rəmzi kimi qeyd olunur.

Novruz bayramı yalnız bir şənlik deyil, həm də xalqın milli-mənəvi dəyərlərini yaşadan mühüm bir ənənədir. Bu bayram insanları bir araya gətirir, sevinc və ümid bəxş edir.

Artıq xalqımız Novruz Bayramını bütöv Azərbaycanda böyük ruh yüksəkliyi ilə qeyd edir. İnsanlar bu əziz gündə bir araya gələrək sevinclərini bölüşür, milli adət-ənənələrimizi yaşadırlar. Hər bir evdə bayram süfrəsi açılır, səməni qoyulur və şirniyyatlar hazırlanır. Uşaqlar tonqal ətrafında şənlənir, böyüklər isə qədim adətləri davam etdirirlər. Bu bayram xalqımızın birliyini, mədəni zənginliyini və gələcəyə olan ümidini əks etdirir.

# 2025-ci ildə Ağdaş rayonunda tikintinin əsas göstəriciləri

***2025-ci ildə bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 109355,2 min manat və ya əvvəlki illə müqayisədə 2,3 dəfə çox investisiya yönəldilmişdir.***

Ümumi sərmayənin 95533,6 min manatı və ya 87,4 faizi dövlət, 13821,6 min manatı və ya 12,6 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 100595,5 min manatı və ya 92,0 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 8759,7 min manatı və ya 8,0 faizi isə maşın, avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. 2025-ci ildə tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki illə müqayisədə 2,2 dəfə artmışdır.

2025-ci ildə tikinti müəssisələri və habelə bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən yerinə yetirilmiş inşaat işlərinin dəyəri əvvəlki illə müqayisədə 46,3 faiz azalaraq 5956,1 min manat olmuşdur. Yerinə yetirilmiş inşaat işlərinin 1,1 faizini tikinti, yenidənqurma və genişləndirmə, 2,7 faizini əsaslı təmir, 70,7 faizini cari təmir, 25,5 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 56,2 faizini dövlət, 43,8 faizini isə qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu**




***Ağdaş Rayon Statistika İdarəsi***

# XRİTDX özəl təhsil müəssisələrində sahə üzrə kadr hazırlığına dəstək göstərir

***Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) rəisi general-leytenant İlqar Musayev Odlar Yurdu Universitetinin informasiya texnologiyaları laboratoriyaları, təlim mühiti və maddi-texniki bazası ilə tanış olub.***



"Unikal" xəbər verir ki, universiteti ziyarət edən nümayəndə heyəti Universitetin rektoru professor Əhməd Vəliyev və Milli Məclisin deputatı Samir Vəliyev ilə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub.

Universitetin rektoru Əhməd Vəliyev qonaqları Universitetin tədris mühiti ilə yaxından tanış edərək, Universitetdə tədris edilən digər ixtisaslarla yanaşı "Kompüter mühəndisliyi", "İnformasiya texnologiyaları" və "İnformasiya təhlükəsizliyi" sahəsində kadr hazırlandığını və həmin kadrların müxtəlif dövlət və özəl qurumlarda, o cümlədən ixtisaslaşmış texnologiya müəssisələrində istehsalat təcrübəsinə cəlb olunduğunu vurğuladı.

Daha sonra Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) ilə Odlar Yurdu Universiteti arasında əməkdaşlıq haqqında Memorandum imzalandı. Memorandumu XRİTDX-nin rəisi general-leytenant İlqar Musayev və Universitetin rektoru professor Əhməd Vəliyev imzalayıb.

Memorandum "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"ndan irəli gələn vəzifələrə uyğun olaraq özəl ali təhsil müəssələrində yüksəkixtisaslı kadrların hazırlanması, informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində innovativ fəaliyyətin təşkili, eləcə də məlumat və təcrübə mübadiləsinin həyata keçirilməsi kimi məqsədləri daşıyır.

Memoranduma əsasən, tərəflər XRİTDX-nın dəstəyi ilə Universitetdə təhsil proqramlarının təkmilləşdirilməsi, tələbələr üçün praktika təcrübələrinin təşkili, Universitetdə ustad dərslərinin keçirilməsi, birgə laboratoriyaların yaradılması və sahə üzrə mütəxəssislərin hazırlanması istiqamətlərində əməkdaşlıq edəcəklər.

İmzalanmış memorandum tərəflər arasında əməkdaşlığın genişləndirilməsinə və informasiya təhlükəsizliyi sahəsində rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına töhfə verəcək.

Qeyd edək ki, XRİTDX bir sıra ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində mühüm layihələr həyata keçirib.

# 2025-ci ildə Yevlaxda sənayenin inkişafı haqqında statistika belə olub




***Yevlax rayonunun sənayesi emalı, elektrik enerjisi qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri ilə təşkil olunmuşdur.***

Rayon ərazisində 62 sənaye müəssisə qeydiyyatdan keçmiş, 2025-ci ildə yalnız 18 müəssisə fəaliyyət göstərmişdir.

2025-ci ildə sənaye müəssisələrində malların istehsalı və sənaye xarakterli xidmətlərin həcmi 36962,3 min manat olmuşdur. Sənaye istehsalı indeksi (sabit qiymətlərlə) 99,3 faiz təşkil etmişdir. İstehsal olunmuş və göstərilmiş xidmətlərdən 21090,9 min manatı hüquqi şəxslərin, 11140,5 min manatı fiziki şəxslərin, 4730,9 min manatı isə ev təsərrüfatlarında sənaye fəaliyyəti ilə məşğul olan təsərrüfatların hesabına olmuşdur.

2025-ci ildə sənaye müəssisələrinin gördüyü işin həcminin 14414,9 min manatı və ya 39,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 723,1 min manatı və ya 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin, 21824,3 min manatı və ya 59,0 faizi emal sənayesinin payına düşür.

Əvvəlki il ilə müqayisədə emal sənayesi üzrə məhsul istehsalı 33,1 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi üzrə 12,5 faiz çox , su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsi üzrə isə 1,9 faiz az olmuşdur.

Hesabat dövrü ərzində emal sənayesinə mənsub olan qeyri-dövlət sektorunda istehsalın həcmi 21824,3 min manat olmuş və sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi 59,0 faiz təşkil etmişdir.

2026-cı il yanvarın 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında mal qalığı 2,6 min manat, ötən ilin müvafiq dövründə isə 2960,6 min manat olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***

11+_27 IYUI-QARA.qxd 3/19/2026 10:05 PM Page 14



# Yağıya qan qusduran 20 yaşlı igid

***44 günlük haqq savaşımızda əsl qəhrəman kimi döyüşüb adını yeni, şanlı tariximizə yazan Azərbaycanın qeyrətli oğullardan biri də zəfər şəhidi Rövşən Eynullayevdir. Biləsuvar rayonunun Nərimankənd kəndində dünyaya göz açan Rövşən sinəsini Vətəninə sipər etməklə 20 yaşında ən ali məqama ucaldı. Onun ömür yolu nə qədər qısa olsa da, zaman-zaman gələn nəsillər üçün qürur, şərəf mənbəyinə dönəcək, bənzərsiz bir örnək olacaq.***



Qəlbi düşmən tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə alışıb-yanan Rövşən Elşən oğlu Eynullayev doğma kənd orta məktəbini başa vurub ordu sıralarına gedib. Cəbhə bölgəsində əyninə forma geyinərək Vətənin keşiyini çəkib. Hər qarış torpağı özünə əziz bilən mərd, cəsur əsgərin göstərdiyi nümunəvi xidməti qısa müddətdə ona yaxşı hörmət qazandırıb. Yağıdan alacağı öcə hazırlaşan Rövşən komandirlərin tapşırıqlarını vaxtında, yüksək keyfiyyətlə yerinə yetirib, ən çətin təlimlərdən belə uğurla çıxıb. Əsgərlikdən sonra da erməni dığalardan qisas almaq üçün silahı əlindən yerə qoymayıb. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq yurdumuzun müdafiəsində dayanıb. Vətən məhəbbəti, düşmənə amansız nifrəti bir qayda olaraq köksündə əsl qəhrəman ürəyi döyünən Rövşəni 30 il əsir düşən Qarabağımızın azadlığı naminə səngərə-döyüşə səsləyib.

Rövşən 2020-ci ilin sentyabrın əvvəlində qısa müddətli təlimlərə cəlb edilib və vəziyyətin nə yerdə olduğunu tam başa düşüb. Sentyabrın 27-də Vətən müharibəsi başlananda bir çox igid oğullarımız kimi sevinə-sevinə, böyük ürəklə, qələbəyə inamla ön cəbhəyə yollanıb. İlk gündən cəsarətlə müharibə meydanına atılıb, düşmən həmləsini dayandırmaq üçün mərdliklə vuruşub, çətin döyüş əməliyyatlarından zəfərlə çıxıb. Və bu hünər Rövşəni komandirlərə, əsgər yoldaşlarına daha çox sevdirib. Vətən torpağının hər qarışını canından əziz bilən Rövşən girdiyi döyüşlərdə dığalara endirdiyi sarsıdıcı zərbələrlə onlara qan qusdurub. Savaş zamanı göstərdiyi fədakarlığı, mərdliyi, misilsiz şücaəti onunla çiyin-çiyinə vuruşan əsgərləri də qələbəyə doğru aparıb.

Qəhrəman əsgərin axırıncı döyüşü də ağır, qeyri-bərabər keçib. Belə ki, Cəbrayıl, Füzuli rayonları istiqamətində gedən torpaq uğrunda mübarizədə son nəfəsinə qədər silahı əlindən yerə qoymayıb, sərrast atəşlə dığaların hərbi texnikasını sıradan çıxarıb, canlı qüvvəsini sarsıdıb. Özü qəfil atılan gülləyə tuş gəlsə də, qanı tökülən yerdə daha bir qələbə bayrağımız dalğalanıb. Həm də Vətənin azadlığı uğrunda gedən döyüşlərdə canını fəda edən bir ailənin övladından bütün Azərbaycan xalqının ən əziz oğluna çevrilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları əsasında Rövşən Eynullayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", eləcə Cəbrayılın, Füzulinin azadlığı uğrunda medallarına layiq görülüb.

"Şəhidlər ölməz - Vətən bölünməz!" deyiblər. Çünki şəhidlər torpağa gömülmür, onlar əbədi yaşamaq üçün elə Vətən səmasının parlaq günəşinə çevrilirlər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Balakən rayonunda muzdla çalışan işçilərin sayı və orta aylıq nominal əməkhaqqı




***2026-cı il yanvarın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 9027 nəfər olmuş, onlardan 5016 nəfəri dövlət sektorunda, 4011 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.***

Muzdla işləyənlərin 13,6 faizi məhsul istehsalı sahələrində, o cümlədən 8,1 faizi emal sənayesində, 2,4 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində, 1,3 faizi tikintidə, 0,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində məşğul olmuşlar.

Xidmət sahəsində işləyənlərin 32,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 30,7 faizi təhsil, 9,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,0 faizi istirahət, əyləncə və incəsənət, 1,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,5 faizi informasiya və rabitə, 0,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 0,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,3 faizi peşə, elmi və texniki fəaliyyət, 0,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 0,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində məşğul olmuşlar.

2025-ci ilin ilkin məlumatlarına əsasən rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,3 faiz artaraq 622,4 manat təşkil etmişdir. Dövlət sektorunda əməkhaqqı 709,5 manat, qeyri-dövlət sektorunda isə 498,4 manat olmuşdur.




**Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev**

# Yol polisi bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq



***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq.***

Bu barədə "Unikal"a BDYPİ-dən məlumat verilib.

Bildirilib ki, bayram günlərində ölkə ərazisində hərəkət intensivliyinin artacağı nəzərə alınaraq, bütün hərəkət iştirakçıları daha diqqətli və məsuliyyətli olmağa çağırılır:

"Nəzərə alınmalıdır ki, yol hərəkəti zamanı verilən hər bir qərar insanların həyat və sağlamlığına birbaşa təsir göstərir, ən kiçik diqqətsizlik isə ağır nəticələrə səbəb ola bilər. Bu baxımdan, səfərə çıxarkən yol və hava şəraiti düzgün qiymətləndirilməli, nəqliyyat vasitələrinin texniki sazlığı əvvəlcədən yoxlanılmalı, hərəkət zamanı müəyyən olunmuş sürət hədlərinə, təhlükəsiz ara məsafəsinə, eləcə də ümumi hərəkət təhlükəsizliyini təmin edən digər tələblərə ciddi əməl edilməlidir".

Məlumatda vurğulanıb ki, bayram günlərində hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin olunması məqsədilə yol polisi əməkdaşları tərəfindən xidmət gücləndirilmiş qaydada təşkil olunacaq.

# Azərbaycan Ermənistana buğda göndərir

***Azərbaycan vasitəsilə Ermənistana daha 7 vaqon buğda göndərilməsi planlaşdırılır.***

"Unikal"ın məlumatına görə, ümumi çəkisi 488 ton olan 7 vaqon buğda Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə Ermənistan Respublikasına daşınır.

Xatırladaq ki, 2025-ci il oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata birgə bəyanatında Azərbaycanın işğal dövründən bəri mövcud olmuş Ermənistana yük tranziti üzrə bütün məhdudiyyətləri aradan qaldırdığını vurğulayıb və ilk belə tranzit yükünün Qazaxıstan taxılının Ermənistana tədarükü olduğunu bildirib.

Dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Ermənistana 1 220 ton Aİ-95 markalı avtomobil benzini göndərib.

9 yanvar 2026-cı ildə Ermənistana ümumilikdə 2 698 ton yük (48 vaqon), o cümlədən 1 742 ton Aİ-95 markalı benzin və 956 ton dizel yanacağı yola salınıb.

Yanvarın 11-də isə bu ölkəyə 979 ton Aİ-92 markalı avtomobil benzini ilə yüklənmiş 18 vaqondan ibarət qatar göndərilib.

Fevralın 25-də isə Azərbaycandan Ermənistana 4 500 ton dizel yanacağı, martın 5-də 1 984 ton dizel yanacağı ilə yüklənmiş 31 vaqon və 135 ton Rusiya gübrəsi ilə yüklənmiş iki vaqon, martın 9-da Rusiya taxılı ilə yüklənmiş 7 vaqondan ibarət yük qatarı, martın 11-də isə ümumi çəkisi 1 023 ton (netto - 770 ton) olan 11 vaqonda taxıl göndərilib.

# FHN qurumlarına müvafiq tapşırıqlar verilib

***Fövqəladə Hallar Nazirliyi (FHN) Novruz və Ramazan bayramları ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı FHN məlumat yayıb.

Bildirilib ki, Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı əmrə əsasən, Novruz və Ramazan bayramları ilə əlaqədar qeyri-iş günlərində bayram mərasimlərinin təşkil olunduğu və insanların kütləvi toplaşdığı məkanlarda baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması işinin təşkil edilməsi, vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin daha etibarlı təmin olunması məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:05 PM Page 15



## "İsrailin bu hücum planlarından xəbərsiz idik" - Tramp



***"Vaşinqton İsrailin "Cənubi Pars" neft yatağına hücum planlarından xəbərsizdir".***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp "Truth Social"da yazıb.

Amerika prezidentinin sözlərinə görə, Qətərin də neft yatağına edilən hücumda heç bir əlaqəsi olmayıb.

"ABŞ bu konkret hücum barədə heç nə bilmirdi və Qətər bunun baş verəcəyindən xəbərsiz idi", - o, qeyd edib.

O əlavə edib ki, İsrail bu halda "Cənubi Pars"a hücum etməyəcək: "Yəhudi dövləti zərbəni "Yaxın Şərqdə baş verənlərə qarşı qəzəbdən" həyata keçirib. Yatağın obyektlərinin "yalnız kiçik bir hissəsi" zədələnib. İran tamamilə günahsız tərəfə - bu halda Qətərə hücum etmək üçün ağılsız qərar verməsə, İsrail artıq son dərəcə vacib və dəyərli "Cənubi Pars"qaz yatağına zərbə endirməyəcək".

***Gülayə Mecid***

## İran Mehdi, Saleh və Səidi edam etdi

***İranda iki polis məmurunu öldürmək və İsrail-ABŞ üçün əməliyyat tədbirləri görmək ittihamları ilə saxlanılan İran Milli İnqilabının üç etirazçısı edam edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Mizan" agentliyi məlumat yayıb. Edam edilənlər - Mehdi Qasemi, Saleh Məhəmmədi və Səid Davudi adlı şəxslər olub.

Onlara qarşı irəli sürülən digər ittihamlar arasında insanları müharibəyə təhrik etmək və ölkənin təhlükəsizliyini pozmaq niyyəti ilə adam öldürmək də var.

Sözügedən şəxslər Qum şəhərində edam olunub.

***Ağarza Elçinoğlu***

## İki ölkəni birləşdirən körpü zədələndi

***Bəhreyn və Səudiyyə Ərəbistanını birləşdirən körpü zədələnib.***

"Unikal" xəbər verir ki, bu barədə "Pars Today" qəzeti yazıb.

"Səudiyyə Ərəbistanı ilə Bəhreyni birləşdirən Kral Fəhd yoluna zərbə endirilib", - qzəet qeyd edib.

Xatırladaq ki, ABŞ və İsrail 28 fevraldan bəri İran ərazisinə hücumlar edir, dağıntılara və insan tələfatına səbəb olur. Buna cavab olaraq İran İsrailə və bölgədəki ABŞ hərbi bazalarına raket zərbələri endirib. İsrail və ABŞ-nin hücumları nəticəsində İranın Ali Lideri Ayətullah Əli Seyid Xamenei və digər yüksək vəzifəli şəxslər də həlak olub.

***Gülayə Mecid***

## İran BƏƏ-dən təzminat tələb etdi

***İran Birləşmiş Ərəb Əmirliklərindən ( BƏƏ ) ABŞ-nin Əmirlik ərazisindən İslam Respublikasına endirdiyi zərbələr nəticəsində dəyən ziyana görə kompensasiya tələb edir.***

"Unikal" xəbər verir ki, Tehranın BMT-dəki daimi nümayəndəsi Səid İrəvani bunu BMT-nin baş katibi Antonio Quterreşə ünvanladığı məktubda yazıb.

Məktubda BƏƏ-nin "qanunsuz hərəkətlərinin" beynəlxalq hüquqi məsuliyyətə səbəb olduğu və İrana dəyən bütün maddi və qeyri-maddi zərərlərə görə kompensasiya tələb olunduğu bildirilir.

Fevralın 28-də ABŞ İsraillə birlikdə İrana qarşı hərbi əməliyyata başlayıb. İslam Respublikasının paytaxtı da daxil olmaqla, çoxsaylı şəhərlərinə hücum edilib. Buna cavab olaraq İran İsrailə və Yaxın Şərqdəki Amerika hava bazalarına raket və pilotsuz təyyarələrlə hücumlar edib.

***Gülayə Mecid***

# İsrail Xəzər dənizindəki gəmiləri niyə vurdu? - TƏHLİL

***Xəzər dənizi uzun illər nisbətən sakit zona hesab olunub. Burada əsasən sahilyanı ölkələr - İran, Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan fəaliyyət göstərir və üçüncü tərəflərin hərbi iştirakı faktiki olaraq yoxdur.***



Lakin ötən gecə İsrail Müdafiə Qüvvələri Xəzər dənizində İran donanmasını vurdu. Bəndər Ənzəli valisi Məhəmməd Saleh Ziyaei liman şəhərinin bir neçə nöqtəsinə raket hücumu edildiyini açıqlayıb. Onun sözlərinə görə, gömrük, Limanlar və Gəmiçilik Təşkilatının Baş İdarəsinin binaları hədəfə alınıb.

İsrail ordusu İranın şimalındakı əraziləri ilk dəfə hədəf aldığını təsdiqləyib. Bununla da Xəzər dənizi ilk dəfə genişmiqyaslı geosiyasi qarşıdurmanın arenasına çevrilib.

İslam Respublikasının gəmiləri Xəzərdə İsrail üçün heç bir təhlükə yaratmır və beynəlxalq dəniz ticarətinə müdaxilə edə bilmir. Bəs İsrail Hərbi Hava Qüvvələri niyə onları vurmağa başladı?

Burada iki məqam ola bilər: Birincisi, bu, İsrailin İslam Respublikasının hərbi potensialını aradan qaldırmaq üçün sistemli və ardıcıl yanaşmasını nümayiş etdirir. Bu gəmilər batırılmalıdır ki, rejimin artıq donanması qalmasın. İkincisi, bu, İran və Rusiya arasında əsas ünsiyyət kanalıdır. Gəmilərin batması İslam Respublikasını dəniz yolu ilə müxtəlif yük daşımaq imkanından məhrum edir.

İsrail mətbuatında yer alan xəbərlərə görə, İsrail Müdafiə Qüvvələri bu hücumla bir neçə məqsədə, o cümlədən Rusiyadan dəniz yolu ilə silah daşınmasının qarşısını almağa nail olub.

Yaxın Şərqdə gərginlik uzun illərdir müxtəlif fazalarda davam etsə də, ABŞ və İsrailin İrana qarşı açıq hərbi əməliyyatlara başlaması region üçün tamamilə yeni və daha təhlükəli mərhələyə çevrilib. Müharibə artıq 3 həftədir davam edir. Artıq İranın zəiflədiyi müşahidə olunur. Bu, qarşıdakı mərhələdə münaqişənin həm daha sərt, həm də daha geniş coğrafiyaya yayılma ehtimalını artırır.

İranın zəiflədiyi şəraitdə onun birbaşa konvensional müharibədə üstünlük qazanmaq imkanları məhdudlaşır. Bu səbəbdən Tehran ənənəvi strategiyasına - asimmetrik cavab mexanizmlərinə müraciət edir. Körfəz ölkələrində neft və qaz obyektlərinin hədəfə alınması bunun klassik nümunəsidir. Bu addımın əsas məqsədi təkcə hərbi deyil, həm də iqtisadi və psixoloji təsir göstərməkdir.

Enerji infrastrukturu qlobal iqtisadiyyatın sinir sistemi sayılır. Bu obyektlərə zərbələr endirilməsi neft qiymətlərinin sürətlə artmasına, dünya bazarlarında qeyri-müəyyənliyin dərinləşməsinə, Qərb ölkələrinə dolayı təzyiqlərə səbəb olur.

ABŞ hərbçilərinin həlak olması isə münaqişənin eskalasiyasında dönüş nöqtəsi hesab oluna bilər. Xüsusilə Donald Tramp kimi sərt ritorika ilə tanınan siyasi fiqurun reaksiyası daha aqressiv hərbi qərarların qəbulunu sürətləndirə bilər. Çünki 6 hərbçinin ölümü az görünsə də, Ağ Ev bu kimi hallara öyrəşməyib.

Belə hallarda ABŞ-nin tipik davranış modeli hava zərbələrinin genişləndirilməsi, İranın hərbi infrastrukturu və komanda mərkəzlərinin hədəfə alınması, kiber və elektron müharibə elementlərinin gücləndirilməsi olur. Bu isə müharibənin daha intensiv və dağıdıcı mərhələyə keçəcəyini göstərir.

Bu tip münaqişələrin tam qələbə ilə bitməsi nadir hallarda baş verir. İran dondurulmuş münaqişə istəmir. Lakin İran müəyyən güzəştlər etməsi əvəzində rejimin təhlükəsizliyini təmin edə bilər və müharibə dayanar. Proses yaxın həftələrdə güc balansının dəyişməsi fonunda baş verəcək.

Lakin belə bir müharibə nə qədər uzansa, onun nəticələri bir o qədər qeyri-müəyyən və təhlükəli olacaq. İranın zəifləməsi münaqişənin bitməsi demək deyil. Əksinə, daha riskli və nəzarətsiz mərhələyə keçid ehtimalını artırır. Ən real gözlənti odur ki, münaqişə qısa müddətdə həlledici şəkildə bitməyəcək.

***Ağarza Elçinoğlu***

# Argentinada humanitar yardım paylayan deputatın burnunu sındırdılar

***Prezident Xavyer Mileyin rəhbərlik etdiyi Azadlıq İrəliləyişi partiyasından olan argentinalı konqresmen humanitar yardım paylayarkən burnunu sındırıb.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, hadisə Tucuman əyalətinin daşqınlardan zərər çəkmiş La Madrid şəhərində baş verib. Federiko Pelli və onun partiya yoldaşları şəhərə zəruri ləvazimatları çatdırıblar.

Şəhərin girişində bir qrup kişi humanitar yardım daşıyan siyasətçini və digər şəxsləri saxlayıblar, onların irəliləməsinə icazə verməyəcəyini bildiriblər. Siyasətçilər və yerli sakinlər arasında qısa söhbətdən sonra naməlum kişi Pellinin üzünə baş zərbəsi endirib.

Nəticədə, deputatın burnu sınıb və xəstəxanaya aparılıb. Şahidlər bildiriblər ki, zərbədən sonra Pelle üzünü tutub dizləri üstə çöküb.

Hücumçu saxlanılıb. Yerli medianın məlumatına görə, o, solçu Ədalət Partiyasından olan əyalətin daxili işlər naziri Dario Monterosla əlaqəli siyasi fəal Marselo Sequra olub.

Hücumun motivi müəyyənləşdirilir və istintaq davam edir. Sequra isə saxlanılıb.

***Gülayə Mecid***

11+_27 IYUl-QARA.qxd 3/19/2026 10:25 PM Page 16



# Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş mini futbol yarışı keçirilib



***44 günlük haqq savaşımızın uğurlu başlanğıcı olan 2016-ci ilin aprel döyüşlərində Vətən qeyrətli oğullar yağıya öz gücünü yaxşı göstərdilər.***

Qan töküb Lələ təpədə torpağın bağrına zəfər bayrağını sancanda artıq şanlı qələbəmizin lap yaxında olduğunu bildirdilər. Həm də torpaq uğrunda ölməklə onu Vətən edən igidlər əbədi olaraq ürəklərə köçdülər. Cismən aramızdan getsələr də, millətin əziz övladları kimi həmişə böyük məhəbbətlə, ehtiramla xatırlanırlar.

Lənkəran Olimpiya İdman Kompleksində gənclər arasında keçirilən mini futbol üzrə Lənkəran rayon turniri də Aprel şəhidlərinin xatirəsinə həsr olunmuşdu.

Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lənkəran Olimpiya İdman Kompleksi ilə birgə təşkilatçılığı sayəsində baş tutan, iki gün davam edən turnirin açılış mərasimində Vətən naminə canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.

8 komandanın qatıldığı gərgin və maraqlı mübarizə şəraitində keçən turnirin yekununda Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsini təmsil edən "LARGİİ" komandası bütün rəqiblərini üstələyərək birinci yerə çıxdı. Uşaq-Gənclər İdman Şahmat Məktəbinin "Fırtına" komandası yarışın ikincisi oldu. Üçüncü yeri isə Lənkəran Dövlət Universitetinin "Coğrafiya" komandası tutdu.

Sonda qalib komandaların üzvləri təşkilatçılar tərəfindən kubok və diplomlarla təltif edildilər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Azərbaycan Badminton Federasiyası qadın və yeniyetmə məhkumlar üçün yarış keçirib

***Ədliyyə Nazirliyinin Penitensiar xidməti və Azərbaycan Badminton Federasiyasının (ABF) birgə əməkdaşlığı çərçivəsində qadın və yeniyetmə məhkumlar üçün yarış təşkil olunub.***

"Unikal" ABF-yə istinadən xəbər verir ki, "İdman həyatdır" devizi altında keçirilən turnir 4 saylı cəzaçəkmə müəssisəsi və yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisədə baş tutub.



Yarışın keçirilməsində əsas məqsəd məhkumların sosial adaptasiyası, sağlamlıqlarının qorunması və asudə vaxtlarının səmərəli təşkilidir. Birincilik uğrunda mübarizə aparan qadın və yeniyetmə məhkumlar arasında qalib gələnlər diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, məhkum edilmiş şəxslərin reinteqrasiyası və asudə vaxtının təşkili məqsədilə müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə mütəmadi olaraq bənzər layihələr həyata keçirilir.

# Levandovski Çempionlar Liqasında rekord qırdı

***"Barselona"nın hücumçusu Robert Levandovski Çempionlar Liqasının 1/8 final mərhələsinin ikinci oyununda "Nyukasl"a (7:2) iki qol vurub.***

"Unikal" İdman.Biz-ə istinadən bildirir ki, bununla hücumçu Çempionlar Liqasında vurduğu qolların sayını 41-ə çatdıraraq yeni turnir rekordu müəyyənləşdirib. Əvvəlki rekordçu 40 komandaya qol vurmuş Lionel Messi olub.



Levandovski "Arsenal", "Mançester Siti", "Tottenhem", "Çelsi", "Nyukasl", "Real Madrid", "Barselona", "Malaqa", "Atletiko", "Vilyarreal", "İnter", "Yuventus", "Roma", "Latsio", "Napoli", "Marsel", PSJ, "Lion", "Brest", "Bavariya", "Borussiya Dortmund", "Benfika", "Porto", "Zenit", "Rostov", "Ayaks", PSV, "Şaxtyor", "Dinamo Kiyev", "Olimpiakos", AEK, "Anderlext", "Antverpen", "Slaviya", "Viktoriya Plzen", "Dinamo Zaqreb", "Srvena Zvezda", "Red Bull Zalsburq", "Yanq Boyz", "Kopenhagen" və "Beşiktaş"ın qapısına qol vurub.

Ümumilikdə polşalı hücumçu Çempionlar Liqasında 142 oyun keçirib, 109 qol vurub.

# Azərbaycan paraüzgüçüləri İspaniyada turnirə qatılacaqlar




***İspaniyanın Barselona şəhərində paraüzgüçülük üzrə Dünya seriyasının Barselona mərhələsi keçiriləcək.***

"Unikal" xəbər verir ki, ölkəmizi yarışda S12 kateqoriyasında Raman Salei, S10-da isə yeniyetmə paraüzgüçülər - Əli Vəliyev və Murad Məmmədov təmsil edəcək.

Turnir martın 19-dan 22-dək təşkil olunacaq.

# "Araz-Naxçıvan"ın iki üzvü milliyə dəvət aldı

***"Araz-Naxçıvan"ın iki üzvü - Kristian Avram və Felipe Santos milli komandalara dəvət alıb.***

"Unikal" xəbər verir ki, bu haqda klubun yaydığı məlumatda bildirilib.

Qapıçı Avram Moldova millisinin martın 26-da Zimbru stadionunda Litva, martın 30-da isə Nikosiyada Kiprlə keçirəcəyi görüşlərdə baş məşqçinin şans verəcəyi təqdirdə meydana çıxa biləcək.

Felipe Santos isə martın 23-dən 31-dək Benin millisinin düşərgəsində olacaq. O, martın 27-də Fələstin, martın 31-də isə Qvineya yığması ilə keçiriləcək qarşılaşmalar üçün dəvət alıb.

# Messi 900-cü qolunu vurdu

***"İnter Mayami" KONKAKAF Çempionlar Kubokunun 1/8 final mərhələsində "Neşvil"lə cavab oyununa çıxıb.***

QOL.az xəbər verir ki, oyun Fort-Loderdeyldəki DRV PNC stadionunda keçirilib. Matç 1:1 hesabı ilə yekunlaşıb. Bu komandalar arasında ilk görüşdə də heç-heçə qeydə alınmışdı - 0:0. Səfər qolları qaydasına görə "Neşvil" turnirin 1/4 finalına yüksəlib.

"İnter Mayami"nin oyundakı yeganə qolunu Lionel Messi vurub. Bu, onun karyerasında rəsmi matçlardakı 900-cü qolu olub.

"Neşvil"dən isə Kristian Espinosa fərqlənib.

# ÇL-də həftənin ən yaxşısı adına namizədlər

***Çempionlar Liqasında 1/8 final mərhələsinin cavab oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər məlum olub.***

"Unikal" qurumun saytına istinadən xəbər verir ki, bunlar "Sportinq"dən Fransişku Trinçao, "Real"dan Vinisius Junior, "Barselona"dan Rafinya, "Liverpul"dan Dominik Soboslaidir.

Fransişku "Bodo-Qlimt"lə matçda 3 qol ötürməsi verib. Vinisius "Mançester Siti" ilə görüşdə dubl edib. Rafinya "Nyukas"la qarşılaşmada 2 qol vurub və 1 qol ötürməsi edib. Soboslai isə "Qalatasaray"la oyunda fərqlənib.

Qalib UEFA-nın saytında keçirilən sorğu nəticəsində müəyyənləşəcək.

# "Qalatasaray" Çempionlar Liqasından nə qədər qazanıb?

***Türkiyənin "Qalatasaray" klubunun bu mövsüm UEFA Çempionlar Liqasından qazandığı məbləğ bəlli olub.***

"Unikal" xəbər verir ki, İstanbul təmsilçisi ümumilikdə 53,5 milyon avro gəlir əldə edib.

Komanda ötən gecə turnirin 1/8 final mərhələsində İngiltərə nəhəngi "Liverpul"a 0:4 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb. Okan Burukun baş məşqçisi olduğu kollektiv 1/4 finala yüksələ bilmədiyi üçün əlavə 12,5 milyon avro mükafatı qazanmaq şansını əldən verib.